# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

09 iyun 2026-cı il, çərşənbə axşamı
№ 098 (7165)
Qiymət 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# 9 iyun, saat 15:00-da...

## Heydər Əliyevin Naxçıvandan Bakıya böyük qayıdışı



Bax səh. 3

## “Yaşıl enerji” gündəliyi Azərbaycanda müzakirə olunur

Bax səh. 4



Bax səh. 3

### “Heydər Əliyev məktəbi” layihəsi başa çatıb



Bax səh. 3

### Siyasi dialoq davam edir



Bax səh. 3

### YAP nümayəndələri Böyük Birlik Partiyasının 13-cü qurultayında iştirak ediblər

### TDT-nin vahid maliyyə institutu

Bax səh. 4

### Beş ayda 16,3 milyard manat

Bax səh. 6

### Uşaqların sosial şəbəkə platformalarında qeydiyyatı qanunla tənzimlənəcək

Bax səh. 5

### “CNN World”un əsassız iddiaları, qərəzli mövqeyi və təxribatçı dezinformasiyası

Bax səh. 6

### Ermənistanda parlament seçkiləri...

Bax səh. 7

### 4 ölü, 4 yaralı...



Bax səh. 5

### Yaxın Şərqdə münaqişə yenidən alovlanır



Bax səh. 6

# 9 iyun, saat 15:00-da...

## Heydər Əliyevin Naxçıvandan Bakıya böyük qayıdışı



Tarixin bu günü - 9 iyun 1993-cü il. O dövrdə Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışan böyük siyasətçi Heydər Əliyev xalqının təkidli tələbi ilə Azərbaycana rəhbərlik etmək üçün Bakıya uçur. Onu gətirən təyyarə iyunun 9-da saat 15:00-da Binə Hava Limanına eniş edir. Bu, İK-65703 nömrəli TU-13413-3 markalı təyyarə idi. Hava limanında Heydər Əliyevi qarşılamaq məqsədilə böyük izdiham toplaşmışdı. İnsanlar Onu coşqu ilə qarşıladılar...



Böyük siyasətçi Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışı adi bir qayıdış deyildi. Bu qayıdışın müstəsna ictimai-siyasi önəmi var idi. Söhbət cəmi iki il əvvəl bəyan edilmiş müstəqilliyimiz üçün yaranan təhdidlərdən və bu təhlükəni sovuşdurmaq üçün xalqın Heydər Əliyev dühasına olan böyük inamından gedirdi. Burada bir müqayisə aparmaq yerinə düşər. Məlumdur ki, Azərbaycan xalqının XX yüzilliyin əvvəllərində qurduğu Şərqdə ilk parlament əsaslı demokratik cümhuriyyətin ömrü qısa olub - cəmi iki il yaşadıqdan sonra xarici müdaxilənin nəticəsi olaraq süqut edib. Tale xalqımıza XX yüzilliyin sonlarında ikinci dəfə müstəqil dövlət qurmaq xoşbəxtliyi nəsib etdi. Ancaq bu dəfə də iki ildən sonra azadlığımız, müstəqilliyimiz təhlükə altına düşmüşdü və onun itirilməsi tam real idi.

Müstəqilliyimizin ilk illərinin mənzərəsini göz önündə canlandıranda Heydər Əliyev dühasının hüdudsuzluğu, Onun Bakıya qayıdışının və paytaxtda ölkəyə rəhbərliyə başlamasının nə qədər böyük məna kəsb etdiyi barədə konkret təsəvvür yaranır. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində bütövlükdə Azərbaycanda çox ağır vəziyyət hökm sürürdü. 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarının səriştəsizliyi ucbatından müstəqilliyimiz ciddi təhdidlərlə üz-üzə qalmışdı. Problemlər getdikcə artırdı. Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, cəmiyyətdə sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. Vəziyyət o dərəcədə ağır idi ki, hətta həssas qruplardan olan insanların müavinətlərini, pensiyaları ödəməyə belə vəsait tapılmırdı. Ermənistan isə ölkədəki anarxiya vəziyyətindən sui-istifadə edərək havadarlarının dəstəyi ilə işğalı genişləndirirdi.

### Bütün ölkəni bürüyən xaos, Gəncə qiyamı

Belə vəziyyətdə silahlı qüvvələrimiz səfərbər olmaq, toparlanmaq əvəzinə, "liderlərin" əlində alətə çevrilmişdi. Orduda vahid komandanlıq yox idi. Hücuma keçən qüvvələrə qəfildən əlverişli mövqedən geri çəkilmək əmri gəlirdi. Gəncədə yerləşən və korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi 709 saylı briqada, necə deyərlər, ordu içində ordu sayılırdı. Müdafiə Nazirliyinin həmin hərbi hissənin ləğv edilməsi ilə bağlı qərar verməsi isə sanki odun üstünə yağ tökdü. İntriqalar, çəkişmələr daha da qızışdı. Müdafiə Nazirliyinin qərarı ilə razılaşmayan Surət Hüseynov qiyama başladığını bəyan etdi. Milli Qvardiyanı 709 saylı briqadanı zərərsizləşdirmək üçün Gəncəyə göndərən AXC-"Müsavat" hakimiyyəti faktiki olaraq ölkədə vətəndaş müharibəsinə rəvac verdi. Hətta həmin vaxt AXC-"Müsavat" qruplaşması öz hakimiyyətini qorumaq üçün Gəncənin bombalanması ilə bağlı qərar belə vermişdi. Hakimiyyətin bu kimi addımlarının ardından isə tabeçilik nümayiş etdirməyən hərbi hissənin zirehli maşınları və silahlı birləşmələri Bakıya doğru yol aldı. Qısa müddətdə bir neçə rayonda qanuni hakimiyyət devrildi. Baş verən hadisələr zamanı ilk qardaş qanı axıdıldı...

### Qeyri-adi uçuş — təyyarə kapitanının xatirələrindən

Təqvimdə hər bir ölkənin tarixi, hər bir xalqın taleyi üçün müstəsna önəm daşıyan günlər var. Müstəqil Azərbaycan üçün belə günlərdən biri 1993-cü il iyunun 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışıdır. Heydər Əliyevin Naxçıvandan Bakıya dönüşünün səbəbləri, məqsədi barədə bəhs etməzdən öncə vurğulayaq ki, bu qayıdış zəruri olduğu qədər də qeyri-adi bir şəraitdə baş tutub. Heydər Əliyevi Bakıya gətirən TU-13413-3 təyyarəsinin kapitanı İlham Əmirovun xatirələrindən: "Həmin dövrdə vəziyyət çox gərgin idi. Bir tərəfdən, Ermənistanın Azərbaycana ərazi iddiaları və Qarabağda davam edən müharibə, digər tərəfdən isə daxildəki gərginlik xaos vəziyyəti yaratmışdı. Həm ermənilər, həm də AXC bilirdilər ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı vəziyyətin sabitləşməsinə səbəb olacaq, bu da onların məqsədlərinə nail olmalarına əngəl yaradacaq. Ömrünü Azərbaycanın inkişafına həsr etmiş Heydər Əliyev kimi nəhəng siyasi xadim dövlətin bütün düşmənlərini, xalqın mənafeyinə zidd siyasət aparan siyasi qüvvələri kənarlaşdıracaq. Bu baxımdan sərnişini Heydər Əliyev olan təyyarəni nə Ermənistan, nə də Gəncə şəhəri üzərindən Bakıya gətirmək olmazdı. Alternativ marşrutdan istifadə etmək lazım idi. Buna görə də əvvəlcədən hazırlanan plan üzrə təyyarəni İran üzərindən idarə edib Bakıya gəlməyi qərara aldım. Beynəlxalq uçuş qanunlarına əsasən, digər dövlətin hava məkanına daxil olmaq üçün mütləq icazə almaq lazımdır. Buna görə də qabaqcadan hazırlanmış plana görə İran tərəfdən icazə almışdıq və bu icazəyə əsasən, təyyarə qonşu dövlətin hava məkanına daxil olaraq Bakıya istiqamət götürdü.

Təyyarənin istiqamətinin dəyişilməsi dispetçer tərəfindən narazılıqla qarşılandı və mənə əsəbi tərzdə geri qayıtmaq əmri verildi. Lakin mən bu əmrə məhəl qoymadım və Ulu Öndəri Bakıya çatdırdım".

### Heydər Əliyev xalqının səsinə səs verdi

Ulu Öndər Heydər Əliyevin həyatı cəsarət nümunələri - ən kritik məqamlarda belə gözləmə mövqeyi tutmadan xalq, Vətən üçün zəruri olan addımları atması, taleyüklü qərarlar qəbul etməsi kimi məqamlarla zəngindir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilən qanlı faciəni xatırlayaq. 20 Yanvar qətliamı imperiya qüvvələri tərəfindən törədilmişdi. Hadisələrin birbaşa günahkarları olan keçmiş ittifaqın rəhbərliyi Bakıda törədilən qırğın barədə xəbərlərin imperiyanın özündə və sərhədlərindən kənara yayılmasını qətiyyən istəmirdi və bu məqsədlə repressiv tədbirlərə əl atılırdı. Belə vəziyyətdə Heydər Əliyev heç nədən çəkinməyərək, Özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, Bakıda törədilən qırğını qətiyyətlə pislədi. Ulu Öndər bu cəsarətli addımı ilə bir tərəfdən imperiya qüvvələrinə meydan oxudu, digər tərəfdən isə Azərbaycan ətrafında informasiya blokadasını yardı, xalqına böyük təsəlli vermiş oldu.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyalarında da böyük cəsarət nümayiş etdirərək Dağlıq Qarabağla, respublikamızın müstəqilliyi ilə bağlı fikirlərini açıq şəkildə dilə gətirdi. Ulu Öndər təzyiqlərə baxmayaraq sonrakı illərdə də müstəqillik ideyalarının müdafiəsində dayandı. 1991-ci il martın 17-də keçmiş sovet ittifaqının saxlanması ilə bağlı keçirilən referendumu yada salaq. Respublikanın o vaxtkı rəhbərlərinin loyallığının, qətiyyətsizliyinin, müstəqillik ideyalarından uzaq olmalarının nəticəsi idi ki, Azərbaycan da həmin referenduma qoşuldu. Lakin burada da Heydər Əliyev nə qədər qətiyyətli olduğunu nümayiş etdirdi. Ulu Öndər Naxçıvanın referendumda iştirak etməməsi ilə bağlı çağırış etdi və keçmiş ittifaqın, Azərbaycanın sabiq rəhbərliyinin təkidlərinə, hədə-qorxularına rəğmən bu çağırışını geri götürmədi. Beləliklə də, Naxçıvan saxta referenduma qoşulmadı.

Heydər Əliyev yox, başqa kim imperiyanın mövcudluğu şəraitində belə cəsarətli addımlar ata bilərdi? Sualın cavabı bəllidir: Heç kim! Bunu ancaq cəsarət və milli təəssübkeşliyin zirvə nöqtəsində qərar tutan Heydər Əliyev edə bilərdi və etdi də!

Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Ulu Öndər 1993-cü ilin yayında ölkədə yuxarıda təsvir etdiyimiz son dərəcə kritik vəziyyət yarananda da Ona bəslənilən ümidləri qırılmağa qoymadı və xalqının yanında olmağa qərar verdi. Bu, xalq, Vətən namino bir fədakarlıq nümunəsi idi. Başqa bir siyasətçi olsa idi, karyerasını düşünüb suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdisə, O həmin çətin günlərdə kənarda qala bilməzdi və qalmadı da! Sonralar "Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibəsində qayıdışının səbəbini izah edən Heydər Əliyev deyirdi:

"...Mən hakimiyyətə özüm gəlməmişəm, məni dəvət etmişdilər. Məni təkidlə dilə tutmuşdular. Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu ağsaqqallar mənə müraciət etmişdilər. Azərbaycan prezidenti Əbülfəz Elçibəy də mənə təkidlə müraciət etmişdi. O, üç dəfə ayın 7-də, 8-də, 9-da Naxçıvana xüsusi təyyarə göndərmişdi və telefon söhbətlərində israrla xahiş edirdi ki, mən Bakıya gəlim. Mən 7-də də, 8-də də imtina etdim. Nəhayət, vəziyyətin getdikcə kəskinləşdiyini duyaraq iyunun 9-da bu dəvəti qəbul etdim və Bakıya gəldim".

Xalqının səsinə səs verərək Bakıya qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə ölkə parlamentinin qərarı ilə Ulu Öndər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ümummilli Lider Heydər Əliyevin müdik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. Bəhs olunan tarixi dövrə ekskur edən Prezident İlham Əliyev vurğulayıb: "Bax bu ağır vəziyyətdə - 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmişdir və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə doğru getməyə başlamışdır".

### Kritik dönəmdə Heydər Əliyev bir ümid işığı kimi görünürdü

1993-cü il iyunun 4-də başlayan Gəncə qiyamı Azərbaycanı "ölüm, ya qalım" dilemması ilə üz-üzə qoymuşdu. Müstəqilliyimiz sürətlə süquta doğru gedirdi. Aydın görünürdü ki, AXC-"Müsavat" iqtidarı ölkədəki vəziyyəti düzəltmək, iqtisadi tənəzzülün qarşısını almaq, Surət Hüseynovun qiyamçı dəstəsini dayandırmaq iqtidarında deyil. Belə kritik dönəmdə görkəmli siyasətçi Heydər Əliyev xalq və elə AXC - "Müsavat" iqtidarı üçün bir ümid işığı kimi görünürdü. Paytaxtda və regionlarda xalq mitinqlərə toplaşaraq böyük dövlətçilik təcrübəsi olan Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasını tələb edirdi. Ölkənin hər yerindən Naxçıvana göndərilən minlərlə məktubun müəlliflərinin mövqeyi eyni idi: "Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasa, Azərbaycan xilas ola bilməyəcək". Sadə vətəndaşlar "Sizin Bakıya qayıtmağınız biz insanlardan daha çox anamız Azərbaycana lazımdır" - deyə gözlənilən faciənin miqyasını dilə gətirirdilər. Ölkə ziyalıları dövlət sükanı arxasında görmək istədikləri yeganə insanın məhz görkəmli dövlət xadimi Heydər Əliyev olduğunu bu şəkildə yazırdılar: "Möhtərəm Heydər Əliyev! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə insan Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz" ("91-lər"in Heydər Əliyevə məşhur müraciətindən).

Eyni zamanda, Gəncə qiyamı baş verəndən sonra AXC-"Müsavat" iqtidarının təmsilçiləri də Heydər Əliyevin yeganə ümid yeri olduğunu etiraf etməyə başladılar və Ondan bir neçə dəfə Bakıya gəlib ölkəyə rəhbərliyi həyata keçirməyi xahiş etdilər. Əslində, Gəncədə baş verən hadisələrdən sonra o dövrdəki iqtidar mənsublarının Ulu Öndər Heydər Əliyevi Bakıya dəvət etmələri xalqın təkidli tələbləri ilə hesablaşmaqdan daha çox özlərinin xilasını düşünmələri ilə bağlı idi. Yada salaq ki, məhz AXC-"Müsavat" hakimiyyəti 1992-ci il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişinə cəhd göstərmişdi. Onların məqsədi naxçıvanlılar tərəfindən yekdilliklə Ali Məclisin Sədri seçilən Ulu Öndərimizi bu vəzifədən uzaqlaşdırmaq idi. Ancaq alınmadı. Bu hadisədən xəbər tutan Naxçıvan camaatı ayağa qalxdı və dağıdıcı ünsürlərə tutarlı cavab verdi.

Görkəmli dövlət xadimi Heydər Əliyev o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

### Davamlı inkişaf yolunda

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət sonradan Azərbaycanın inkişafının mayakına çevrildi. Hər bir ölkənin davamlı inkişafının əsas şərti siyasi kursun varisliyinin təmin edilməsindədir. Liderlər əvəzlənən zaman əvvəlki siyasi kursdan imtina edilməsi ilə baş verən geridönmələr mütləq qaydada ölkələrin inkişafına mənfi təsir göstərir. Azərbaycanın xoşbəxtliyi ondadır ki, ölkəmizdə belə geridönmələr müşahidə edilmir. 1993-cü ilin 9 iyunundan başlayan qurtuluş yolu ilə inamla irəliləyən Azərbaycan böyük uğurlara imza atıb. Bu uğurların təməlində dayanan əsas amil isə Ulu Öndərin əsasını qoyduğu siyasətin sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilməsidir. Prezident İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə dövlət başçısı statusunda fəaliyyətə başlayarkən bəyan etdi ki, Onun üçün bundan sonra əsas vəzifə Heydər Əliyev siyasətini davam etdirmək olacaq. O, verdiyi vədə sadiq qalaraq Ulu Öndərin əsasını qoyduğu siyasəti həm yüksək səviyyədə davam etdirib, həm də müasir çağırışları nəzərə alaraq yeni çalarlarla daha da zənginləşdirib.

Bu da özünün müsbət nəticələrini verir. Zamanında Ulu Öndər Heydər Əliyevin xilas etdiyi müstəqil Azərbaycan bu gün davamlı inkişaf yolundadır. Prezident İlham Əliyevin uğurlu rəhbərliyi ilə iqtisadi və siyasi müstəqilliyini tam təmin edən, ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olan respublikamız yeni strateji mərhələ üçün müəyyənləşdirilən ümummilli hədəflərinə doğru inamla irəliləyir. Dövlətimizin başçısının vurğuladığı kimi, biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq. Bu dövlət əbədi yaşamalıdır və uğurla yaşamalıdır.

***Mübariz ABDULLAYEV***

# Siyasi dialoq davam edir

## Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevlə görüş



İyunun 6-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev arasında görüş keçirilib.

Görüş zamanı region və dünyada müşahidə olunan tendensiyalarla yanaşı, ölkənin daxili siyasi həyatında baş verən əlamətdar dəyişikliklər, siyasi proseslərin demokratikləşməsi və sağlam münasibətlərin bərqərar olunmasına xidmət edən dövlətin təşəbbüsləri, siyasi dialoq sayəsində əldə olunmuş vacib nailiyyətlər və digər məsələlər ətrafında söhbət aparılıb.

Vurğulanıb ki, ölkədə sağlam əməkdaşlıq mühitinin mövcudluğu bilavasitə ali siyasi iradənin təcəssümüdür və mövcud istiqamətdə atılan bütün təşəbbüslər siyasi partiyalar tərəfindən aktiv şəkildə dəstəklənir. Həmçinin qeyd olunub ki, Azərbaycan ictimaiyyəti siyasi partiyaların sərbəst fəaliyyəti və inkişafı üçün ötən müddət ərzində görülmüş müxtəlif səpgili işlərin canlı şahididir.

Vətən müharibəsində qazanılmış böyük Zəfərdən sonra cəmiyyətdə yaşanan milli birliyin bundan sonra da qorunmasında siyasi partiyaların aktivliyi xüsusi olaraq vurğulanıb.

İnformasiya məkanında vaxtaşırı şəkildə yaşanan təxribatları və qərəzli yanaşmaları tənqid edən Partiya sədri mövcud məsələdə də hər zaman dövlətin yanında olduğunu bildirib. Məsuliyyətsiz demaqogiyanın yalnız qərəz və məkrli niyyətlərin məhsulu olduğunu qeyd edən H.Hacıyev rəhbərlik etdiyi Partiyanın dövlətçilik ənənələrinin və milli birliyin qorunması uğrunda mübarizədə bütün resurslarını səfərbər etməyə hazır olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda milli mənafelərin qorunması yolunda Müasir Müsavat Partiyasına uğurlar arzulayıb.

## Ağ Partiyasının sədri Tural Abbaslı ilə görüş

İyunun 8-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ağ Partiyasının sədri Tural Abbaslı ilə görüşüb.

Partiyanın Mətbuat xidmətindən verilən məlumata görə, Prezident Administrasiyasında keçirilən görüş zamanı beynəlxalq münasibətlər sistemində müşahidə olunan transformasiya prosesləri fonunda Azərbaycanın sərgilədiyi prinsipial mövqe, bilavasitə daxili siyasət ilə əlaqədar olan bir sıra önəmli məsələlər ətrafında söhbət aparılıb.

Görüşdə "Siyasi partiyalar haqqında" Qanunun qəbulundan sonra partiyaların normal və legitim fəaliyyəti üçün dövlət tərəfindən görülmüş müxtəlif səpgili tədbirlər, həmçinin ölkədə yaranmış sağlam siyasi iqlimin mövcudluğunu şərtləndirəndigər amillər müzakirə olunub. Vurğulanıb ki, bilavasitə ali siyasi iradənin təcəssümü olan siyasi partiyaların inkişafına göstərilən dəstək sayəsində ölkənin dayanıqlı demokratik ənənələrinin formalaşması prosesi ardıcıl şəkildə davam edir. Bu mənada sağlam əməkdaşlıq mühitinin qorunması prosesinin siyasi partiyalar tərəfindən aktiv şəkildə dəstəklənməsi faktı da müstəsna əhəmiyyətə malikdir.

Həmçinin qeyd olunub ki, xüsusilə Vətən müharibəsində qazanılmış böyük Zəfərdən sonra Azərbaycana qarşı artan qərəzli informasiya təxribatları ilə mübarizədə vətənpərvər siyasi qüvvələrin aktiv iştirakının təmin olunması məsələsində də siyasi partiyaların rolu əvəzolunmazdır. Ölkənin vətənpərvər gənclərinin də milli maraqlar naminəbirləşməsi istiqamətində siyasi partiyalarla aparılan əməkdaşlıq əlaqələrinin önəmli istiqamətlərindən biridir.

Dövlət və cəmiyyət üçün strateji əhəmiyyət daşıyan milli birliyin qorunması, habelə informasiya məkanında yaşanan məkrli təxribatlar ilə mübarizədə hər zaman dövlətin yanında olduğunu bildirən Partiya sədri mövcud istiqamətlərdə dövlət tərəfindən atılacaq hər bir təşəbbüsün dəstəklənməsinin zəruriliyini xüsusi olaraq vurğulayıb.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda milli dövlətçilik ənənələrinin və milli maraqların qorunması yolunda Ağ Partiyasına uğurlar arzulayıb.

## "Heydər Əliyev məktəbi" layihəsi başa çatıb











İyunun 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunan "Heydər Əliyev məktəbi" layihəsi başa çatıb.

Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən layihənin bağlanış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova, YAP İdarə Heyətinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, YAP Mərkəzi Aparatının Təşkilat və Gender siyasəti və gənclərlə iş şöbələrinin baş məsləhətçiləri Araz Salmanov və Günel Məmmədova çıxış ediblər.

Qeyd olunub ki, ölkəmizdə gənclərin hərtərəfli inkişafı daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı, onların təhsilinə, şəxsi inkişafına və ictimai fəallığının artırılmasına yönəlmiş ardıcıl siyasət bu sahədə əldə olunan nailiyyətlərin əsasını təşkil edir. Yeni Azərbaycan Partiyası da bu siyasətə uyğun olaraq gənclərin bilik və bacarıqlarının artırılması, vətənpərvər ruhda yetişməsi və cəmiyyət həyatında daha fəal iştirak etməsi üçün müxtəlif layihələr həyata keçirməkdədir. "Heydər Əliyev məktəbi" layihəsi də həmin məqsədlərə xidmət edən mühüm layihələrdən biridir.

Vurğulanıb ki, layihə əsas məqsədlərindən biri də ölkəmizin müxtəlif şəhər və rayonlarından olan gənclər arasında əlaqələrin daha da gücləndirilməsi olub. Layihə çərçivəsində keçirilən tədbirlər gənclərin komanda işi, ünsiyyət və təşkilatçılıq bacarıqlarının inkişafına mühüm töhfə verib. Bu cür təşəbbüslər gənclərin inkişafında, onların cəmiyyət həyatında daha fəal iştirakının təmin edilməsində və milli-mənəvi dəyərlərə bağlı, savadlı gənc nəslin formalaşmasında mühüm rol oynayır.

Layihə iştirakçıları Nazpəri Rzayeva, Zəka Məhərrəmov, Nuranə Mirzəyeva, Əliheydər Abdullayev və başqaları düşərgə barədə təəssüratlarını bölüşüblər.

Daha sonra "Heydər Əliyev məktəbi" layihəsinin iştirakçılarına sertifikatlar, intellektual yarışlarda qələbə qazanan komandalara xatirə kubokları verilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Böyük Birlik Partiyasının 13-cü qurultayında iştirak ediblər








Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mübariz Qurbanlı və YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində keçirilən Böyük Birlik Partiyasının (BBP) 13-cü qurultayında iştirak edib.

Qurultaya Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) və digər bir sıra siyasi partiyaların nümayəndələri, ictimai xadimlər, eləcə də Azərbaycan, Özbəkistan, Şimali Makedoniya, Şimali Kipr Türk Cümhuriyyəti və başqa ölkələrdən dəvət olunmuş qonaqlar qatılıblar.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Prezidenti, AK Parti Sədri Rəcəb Tayyib Ərdoğanın qurultay iştirakçılarına müraciəti səsləndirilib.

Böyük Birlik Partiyasının sədri Mustafa Destici qurultay iştirakçılarını salamlayaraq partiyanın fəaliyyətinə dair məruzə ilə çıxış edib.

Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinə toxunan Mustafa Destici Qarabağda dalğalanan Azərbaycan bayrağının bütün Türk dünyası üçün qürur mənbəyi olduğunu vurğulayıb. O, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasını tarixi nailiyyət kimi dəyərləndirərək, bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna təşəkkürünü ifadə edib. Mustafa Destici Qarabağ Zəfərinin təkcə Azərbaycan xalqının deyil, bütövlükdə Türk dünyasının sevinc və qürur mənbəyi olduğunu, bu tarixi qələbənin türk xalqları arasında birlik və həmrəyliyin güclənməsinə mühüm töhfə verdiyini bildirib.

BBP sədri ötən il Azərbaycana səfərini xatırladaraq göstərilən qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib. O, YAP ilə əlaqələrin əhəmiyyətini vurğulayaraq qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib.

Qurultay çərçivəsində partiyanın hesabat məruzələri dinlənilib, təşkilati məsələlərə baxılıb, qarşıdakı dövr üçün fəaliyyət prioritetləri müzakirə olunub, həmçinin partiyanın rəhbər və idarəetmə orqanlarına seçkilər keçirilib. Çıxışlarda milli həmrəyliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf, sosial rifahın yüksəldilməsi, türk dünyasında əməkdaşlığın genişləndirilməsi və regional təhlükəsizlik məsələlərinə dair fikirlər səsləndirilib.

Qurultayın sonunda keçirilən seçkilərin nəticələrinə əsasən Mustafa Destici yenidən Böyük Birlik Partiyasının sədri seçilib.

# “Yaşıl enerji” gündəliyi Azərbaycanda müzakirə olunur

## Dünyanın nüfuzlu təşkilatları ilə “yaşıl enerji” əməkdaşlığına dair anlaşmalar əldə olunub

Prezident İlham Əliyev “Baku Energy Forum”unda çıxışı zamanı ölkəmizin bərpaolunan enerji potensialına və “yaşıl enerji”nin nəqli imkanlarına diqqət çəkərək bu istiqamətdə çox müsbət göstəricilərin əldə edildiyinə toxunub. Bəyan edildiyi kimi bir sıra layihələr istismar mərhələsindədir. Gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Fəal şəkildə inkişaf etdirilən hidroenerji potensialının istehsalı da ümidvericidir. Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox hidroenerji gücü istifadəyə verilib. Digər resursları da nəzərə aldıqda, ölkəmizin enerji potensialı daha da böyüyür.

Enerji forumunda çıxış edən dünyanın aparıcı təşkilatlarının və şirkətlərinin nümayəndələrinin çıxışlarından da aydın görünür ki, “yaşıl enerji” istehsalı müasir urbanizasiyanın vacib elementi kimi çıxış edir, şəhər arxitekturasının dayanıqlı mənbələrindən birinə çevrilməkdədir. Bu baxımdan Azərbaycan hökuməti ilə dünyanın nüfuzlu institutları arasında Bakıda aparılan müzakirələr “yaşıl enerji” tədarükünün aktuallığını ön plana çıxarır, regional enerji zonasının genişlənməsinə dəstək verir. Bu, həm də, ölkəmizin iqlim dəyişikliyi və ətraf mühitin qorunması, eləcə də “yaşıl iqtisadiyyat”ın güclənməsi ilə bağlı qlobal həmrəyliyin artmasında fəal təşəbbüskarlığını nümayiş etdirir, yeni “yaşıl sərmayələrin” təşviqinə impuls verir.

### “Yaşıl enerji” potensialı ümidvericidir

Azərbaycanın “yaşıl enerji” potensialları olduqca ümidvericidir. Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla, bərpaolunan enerji mənbələrinin payı 17-18 faiz təşkil edir. Bu da 1278 MVt elektrik enerjisi deməkdir. Qiymətləndirmələrə görə, ölkəmizin bərpaolunan enerji mənbələri üzrə texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

“Yaşıl enerji” zonaları elan olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan enerji mənbələri ümumi enerji gücünün təxminən 30-40 faizinə bərabərdir. Təkcə bu bölgədə hidrogen resursları böyük mənbə formalaşdırmağa imkan verir. Son 4 ildə bu bölgədə 40-dan çox su elektrik stansiyası istifadəyə verilib, digər su elektrik stansiyasının açılışı planlaşdırılır.

Bununla yanaşı, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında texniki potensialı 7200 MVt-dan çox olan günəş enerjisinin istehsalı üçün zəruri infrastrukturların yaradılması istiqamətində yerli və xarici şirkətlərlə iş aparılır.

Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının inşasına start verilib, 240 MVt-lıq “Şəfəq” Günəş Elektrik Stansiyasının (GES) inşası davam etdirilir. Bütün bu ehtiyatlar təsdiqləyir ki, ölkəmizin “yaşıl enerji” dəhlizində əsas tədarükçülərdən biri olmaq üçün böyük imkanları mövcuddur. Yeri gəlmişkən, enerji forumunda imzalanmış sazişlərin bir istiqaməti bərpaolunan resursların istehsalını nəzərdə tutur ki, onların bir neçəsi azad ərazilərdə yeni infrastrukturların qurulması ilə bağlıdır. Bu prosesdə Avropa, Çin, Körfəz ölkələri əməkdaşlıq çərçivəsində enerji istehsalı və ötürmə mərkəzlərinin yaradılması nəzərdə tutulur.



### Azərbaycan çoxistiqamətli “yaşıl nəqliyyat dəhlizləri” formalaşdırır

Dövlət başçısı tərəfdaş ölkələrlə bərpaolunan enerji layihələrində əməkdaşlığa və enerji kabeli layihələrinin mövcud vəziyyətinə də toxunub. Son illərdə “Masdar”, “ACWA Power”, “BP”, “Fortescue Future Industries”, “China Gezhouba Group”,”Total Energies”, “Nobel Energy”, “Czech Engineering”, “Baltech” və digər şirkətlərlə imzalanmış müqavilələrə əsasən, “yaşlı enerji” ilə bağlı əməkdaşlığa başlanılıb. Əldə edilən “yaşıl enerji”nin böyük bir hissəsi daxili ehtiyacların ödənilməsinə yönəldildikdən sonra, qalan hissəsi xaricə ixrac olunacaq.

Ən perspektiv layihə olan “Qara dəniz Enerji Kabeli”nin texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu xatırladıldı. Bu layihə Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcək. Qeyd edək ki, 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında yeni enerji ənənədaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və “yaşıl enerji”nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb.

Layihənin digər seqmenti olan Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsi də hazırda icra mərhələsindədir. Azərbaycan, həmçinin Mərkəzi Asiyadakı tərəfdaşlarımızla birlikdə Xəzərin şərq sahillərindən ölkəmizə qədər uzanacaq “yaşıl enerji” kabeli layihəsi üzərində də işləyir. Belə ki, 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı “Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan “təmiz” elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur.

Digər ölkələrin tranzit zəncirinə qoşulmaq istəyi “yaşıl dəhliz”in daha böyük coğrafiyanı əhatə edəcəyindən və regional enerji habına çevriləcəyindən xəbər verir. Bunu Avropa İttifaqının Enerji komissarlığı da bəyan edib. Komissarlığın bəyanatında qeyd edilir ki, təmiz enerjiyə keçidin ən etibarlı qollarından biri olan “Yaşıl enerji dəhlizi” böyük bir bölgəni əhatə etməklə təmiz enerjiyə keçid strategiyasının prinsiplərinə uyğun olaraq rəqabətqabiliyyətli bazarın formalaşmasına və bərpaolunan mənbələrdən elektrik enerjisinin çoxşaxəli mübadiləsini təmin edəcək. Bu baxımdan layihənin Cənubi Qafqaz-Avropa platformasından çıxaraq digər regionların da qovuşduracağı istisna deyil.

Beləliklə, ölkəmiz geniş coğrafiyanı əhatə edən böyük əməkdaşlıq məkanına çevrilməklə, “yaşıl nəqliyyat dəhlizləri”ni də formalaşdırır.

*E.CƏFƏRLİ*

# TDT-nin vahid maliyyə institutu



## Türk dövlətlərinin Mərkəzi Bankları Şurasının toplantısında yeni strateji prioritetlər müəyyənləşib

Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Mərkəzi Bankları Şurasının növbəti toplantısında qlobal çağırışlar müstəvisində makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması, monetar siyasətin ötürücülüyünün təkmilləşdirilməsi, həmçinin rəqəmsal transformasiya dövründə maliyyə texnologiyalarının inkişafı istiqamətində bank sektorunun fəaliyyəti müzakirə olunub. Tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan və Türkiyə mərkəzi banklarının, həmçinin müşahidəçi qismində Macarıstan və Şimali Kipr Türk Respublikasının nümayəndə heyətləri iştirak edib.

TDT Mərkəzi Bankları Şurasının iştirakçılarını qəbul edən Azərbaycanın baş naziri Əli Əsədov bu mötəbər tədbirin türk dövlətlərinə üzv ölkələrin maliyyə sektorları arasında əməkdaşlığın gücləndirilməsinə, bu prosesdə mərkəzi bankların rolunun artırılmasına töhfə verəcəyinə əminliyini ifadə edib. TDT-yə üzv dövlətlər arasında qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan əməkdaşlığın müxtəlif istiqamətləri üzrə uğurla inkişaf etdiyi xatırladılıb. Azərbaycanda maliyyə-bank sektorunun modernləşdirilməsi məqsədilə həyata keçirilən ardıcıl islahatlar, maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması və bank sisteminin sabitliyinin gücləndirilməsi sahəsində əldə olunan nəticələrə toxunulub.

**Vahid ödəniş sisteminin yaradılmasına doğru**

Xatırladaq ki, TDT ölkələri arasında maliyyə əlaqələndiricisi funksiyasını yerinə yetirmək məqsədilə 2024-cü ildə Mərkəzi Banklar Şurası təsis edilib. Şuranın başlıca hədəfi TDT ölkələrinin Mərkəzi Bankları arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, pul-kredit siyasətinin tənzimlənməsi, maliyyə sabitliyinin təmin olunması, ödəniş sistemlərinin inkişafı, maliyyə və rəqəmsal texnologiyaların tətbiqi və digər sahələrdə həyata keçirilən siyasətlərin vahid platformada əlaqəndirilməsidir. Təşkilatın ilk toplantısı ötən il Qazaxıstanın Astana şəhərində keçirilib. Tərəflər monetar siyasət, maliyyə sabitliyi, ödəniş sistemləri, maliyyə texnologiyaları və digər qarşılıqlı maraq kəsb edən sahələr üzrə əməkdaşlığın gücləndirilməsi, birgə məsləhətləşmələrin təşviqi ilə bağlı anlaşma əldə edib.

Bakı toplantısında isə qarşıya qoyulmuş hədəflərin müasir çağırışlar fonunda daha da inkişaf etdirilməsinə xüsusi diqqət çəkilib. Xüsusilə də TDT üzvləri arasında rəqəmsal ödəniş arxitekturasının qurulması və vahid ödəniş sisteminin fəaliyyətinin təmin olunması barədə təkliflər müsbət qarşılanıb.

Mərkəzi Bankın sədri Taleh Kazımov toplantının Şuranın fəaliyyətində növbəti mühüm səhifə olmaqla regionumuzda daha inteqrasiya olunmuş, innovativ və dayanıqlı maliyyə ekosisteminin formalaşmasına mühüm töhfə verəcəyinə dair inamını ifadə edib. Azərbaycanın TDT-yə sədrliyi çərçivəsində iqtisadi, ticarət, investisiya, nəqliyyat, enerji, maliyyə, humanitar və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsinə xüsusi diqqət yetirildiyi vurğulanıb.

**Türk İnvestisiya Fondu regional maliyyə institutuna çevrilir**

Çıxış edən natiqlər TDT çərçivəsində maliyyə-bank sahəsində əməkdaşlığın inkişaf perspektivləri barədə yeni təşəbbüslər irəli sürüb. Əsas prioritetlərdən biri kimi ölkələr arasında maliyyə bağlantılarını təşviq edən sərmayə layihələrinə diqqətin artırılması, bu istiqamətdə dövlətlə yanaşı, özəl qurumların da rolunun artırılmasının vacibliyinə toxunulub. Eyni zamanda, türk dövlətlərinin ortaq maliyyə strukturu olan Türk İnvestisiya Fondunun özəl bank sistemlərinə inteqrasiyası da vacib məsələ kimi xatırladılıb. Xatırladaq ki, Fond hazırda türk ölkələrinin iqtisadiyyatında aktiv səhmdar kimi çıxış edir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan tərəfindən təsis edilmiş fond türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Üzv ölkələrin üzvlük haqqı, investisiya ayırmaları, əsas kapital və əlavə maliyyə alətlərindən formalaşacan Fondun nizamnamə kapitalı ilkin mərhələdə 500 milyon dollar müəyyən edilib, kapital fondu hər biri nominal dəyəri 50 min dollara bərabər 10 min paya bölünüb ki, burada hər üzv ölkənin limitə uyğun payı vardır. Bundan başqa, Fondun nizamnamə kapitalı ödənilmiş paylara və yenidən çağrıla bilən, yəni cəlb edilən paylara bölünüb ki, ümumi nominal dəyər 350 milyon dollar təşkil edir. Əlavə maliyyələşmədə ölkələr üzrə ümumi nominal dəyər isə 150 milyon dollardır. Gələcəkdə, Fondun maliyyə portfelinin daha da artırlaraq 1 milyard dolları ötəcəyi istisna olunmur.

**Azərbaycan və Macarıstan arasında anlaşma**

Ümumiyyətlə, toplantıda səslənən fikirlərdən də aydın olur ki, TDT ölkələrinin Mərkəzi Banklar Şurasının fəaliyyət istiqamətləri olduqca genişdir və sərmayələrin təşviqi üçün bütün maliyyə, investisiya, kapital fondları ilə birgə əlaqələndirici missiyanı yerinə yetirmək niyyətindədir. Belə ki, türk dövlətləri ərazisində investisiya qoyulan layihələrdə aparıcı sənaye tərəfdaşlığının qurulması, bank kapitallarında payların və səhm paketlərinin, həmçinin həmin subyektlərin istiqrazlarını və digər qiymətli kağızların əldə edilməsi, kreditlərin ayrılması və qiymətli kağızların buraxılışı kimi alətlərə çıxış imkanları yaradılmış olur ki, bu da vahid maliyyə institutu funksiyasının formalaşdırılması deməkdir.

Toplantı çərçivəsində Azərbaycanın Mərkəzi Bankı ilə Macarıstan Mərkəzi Bankı (MMB) arasında Anlaşma Memorandumu imzalanıb. Sənəd monetar siyasət, bank nəzarəti, kapital bazarları, sığorta sektoru, ödəniş sistemləri və maliyyə texnologiyaları sahəsində qarşılıqlı məlumat mübadilələri aparılacaq. Görüşlər, seminarlar, təcrübə mübadilələri, təlim proqramları və işgüzar səfərlər vasitəsilə texniki əməkdaşlıq məsələlərini nəzərdə tutur.

*E.CƏFƏRLİ*

# Uşaqların sosial şəbəkə platformalarında qeydiyyatı qanunla tənzimlənəcək

Azərbaycanda “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanuna bir sıra dəyişikliklərin edilməsi təklif olunur. Bununla bağlı müzakirələrin Milli Məclisin İnsan hüquqları və Ailə, qadın və uşaq məsələləri komitələrinin iclasında aparılacağı gözlənilir.

Bəs müvafiq qanuna dəyişikliklərin edilməsinin gündəmə gətirilməsini şərtləndirən hansı amillərdir? Həmçinin dəyişikliklər hansı məqamları əhatə edəcək? Bu dəyişiklikləri etməkdə məqsəd nədir və onlar nəyi dəyişəcək?

## Real vəziyyət: Sosial şəbəkələrin açdığı imkanlar və yaratdığı risklər

Biz informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə səciyyələnən Dördüncü sənaye inqilabı dövründə yaşamağımızla qürur duyuruq. Buna səbəb də var. İnternet dünyanı bizim ovcumuza daşıyır, hətta ən uzaq məkanlarda baş verənləri belə anındaca izləmək imkanımız olur. Böyüklərlə bağlı vəziyyət aydındır. Onlar internetdə, sosial şəbəkələrdə tanış olduqları kontentləri ağıl, düşüncə və təcrübə süzgəcindən keçirib dəyərləndirməkdə çətinlik çəkmirlər.

Gələcəyimiz sandığımız uşaqlarla isə vəziyyət tamam fərqlidir. Hazırda uşaqların həyatı yalnız ailə, məktəb və qohumların çevrəsi ilə məhdudlaşmır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar olaraq hüdudsuz dənizə bənzəyən sosial şəbəkələrin uşaqlar üçün də əlçatanlığı artıb. Hətta bu əlçatanlıq o dərəcədə genişlənib ki, bir sıra hallarda valideynlər özlərini uşaq qayğılarından azad etmək üçün övladlarının saatlarla sosial şəbəkələrdə qalmalarına belə şərait yaradırlar.

Əlbəttə, uşaqların həyatına daxil olan və onların ayrılmaq istəmədikləri, sevimli əyləncələrinə çevrilən sosial şəbəkələrin övladlarımızın qarşısında daha çox məlumat almaları, biliklərini artırmaları, yeni ünsiyyət qurmaları, dostlar qazanmaları, dünyanı virtual səyahətə çıxmaları üçün geniş imkanlar açdığını inkar etmək mümkün deyil. Ancaq nəzərə almaq lazımdır ki, uşaqların psixologiyası, həyata baxışları tam formalaşmadığına görə, onların sosial şəbəkələrdə zərərli təsirlərə məruz qalma riskləri daha böyükdür. Obrazlı ifadə etsək, uşaqlar sosial şəbəkələrin labirintinə düşürlər, burada azırlar və müəyyən müddətdən sonra onları sosial şəbəkələr üzərindən aldıqları zərərli təsirlərdən qurtarmaq çox çətin olur və yaxud heç mümkün olmur. Sosial şəbəkələr üzərindən uşaqlara zərərli təsirlərin ötürülməsindən bəhs etdikdə xüsusilə də zorakılıq, aqressiya, nifrət nitqi, saxta məlumatlar, yaşa uyğun olmayan reklamlar və vizual materiallar nəzərdə tutulur. Uşaqlar sosial şəbəkələrdə həmçinin kibertəhlükəsizlik, ailə sirlərinin ötürülməsi, təhqir, mənəvi zorakılıq, pis vərdişlərə çağırışlar və digər belə hallarla üz-üzə qalırlar. Dünya görüşləri tam formalaşmayan uşaqlar bu təzyiqlərin gerçək məzmununu anlamaqda və düzgün qərar çıxarmaqda acizdirlər. Onlar uzun müddət əl telefonlarından, kompüterlərdən aldıqları təsirlərdən yaxa qurtara bilmirlər və beləliklə də psixoloji sıxıntılara məruz qalırlar. Bir çox hallarda sosial şəbəkələr uşaqlarda asılılıq sindromu yaradır və onlar özlərinə qapanırlar. Belə uşaqlar üçün real həyatda sosiallaşma çətinləşir, onlar düşdükləri yeni mühitdə ünsiyyət qura bilmirlər.



Beləliklə, müqayisə apardıqda aydın şəkildə görünür ki, sosial şəbəkələrin uşaqlar üçün zərəri faydasından daha çoxdur. Buna görə də müvafiq qanuna zəruri dəyişikliklərin edilməsi heç bir halda uşaqların hüquqlarının məhdudlaşdırılması anlamında başa düşülməməlidir, əksinə, məqsəd onların müdafiəsini daha dolğun şəkildə təmin etməkdir. Heç bir halda yol verməmək olmaz ki, övladımızın sağlamlığı, rifahı, gələcəyi sosial şəbəkələrdən asılı olsun. Burada əsas yük ailələrin üzərinə düşür. Valideynlər uşaqlarının rəqəmsal mühitdə fəaliyyətlərinə ilk növbədə məsuldurlar.

## Dövlətin həssas yanaşması

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar ölkəmizdə uşaqların internet üzərindən zərərli təsirlərdən qorunması dövlət siyasətinin vacib istiqamətlərindən birinə çevrilib. Bununla bağlı dövlətin həssas yanaşması təqdirəlayiqdir. Xatırladaq ki, Prezident İlham Əliyev 27 fevral 2026-cı il tarixində “Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında “ ayrıca sərəncam imzalayıb. Sənəddə vurğulanır ki, sosial münasibətlərin sürətlə rəqəmsallaşması və sosial şəbəkələrin uşaqların gündəlik həyatına getdikcə daha erkən yaşda daxil olması, həmin şəbəkələr vasitəsilə informasiyanın istehsalı, yayılması və istehlakının miqyasının artması bu sahədə hüquqi tənzimləmənin mövcud vəziyyətinin müasir texnoloji, sosial və təhlükəsizlik çağırışları baxımından təhlilini və təkmilləşdirilməsini zəruri edir.

Azərbaycan bu sahədə öz siyasətini dünya ölkələrinin təcrübəsinə əsaslanmaqla qurur. Beynəlxalq təcrübədə, ilk növbədə, sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi, onlara uşaqlar üçün risklərin azaldılması, məlumatların daha ciddi mühafizəsi və təhlükəsizliyi ilə bağlı öhdəliklər müəyyən edən tələblərin tətbiqinin geniş vüsət alması müşahidə olunur. “Bu yeni tələblər sosial şəbəkələrin fəaliyyətinin sistemli hüquqi çərçivədə tənzimlənməsi, valideyn nəzarəti, platformadaxili təhlükəsizlik mexanizmləri və yaşa uyğun məzmun filtrləri vasitəsilə uşaqların və yeniyetmələrin rəqəmsal mühitdə təhlükəsizliyini təmin edir, həmçinin onların kritik informasiyanı təhlil etmə, davranış və bilgi mədəniyyətinin inkişafına şərait yaradır”, - deyə sərəncamda vurğulanır.

## Rəqəmsal mühitin təhlükəsizliyi uşaqlarımız üçün çox mühümdür - provayderin məsuliyyəti və öhdəliyi

Dəyişikliklər qüvvəyə mindikdən sonra uşaqların sosial şəbəkə platformalarında qeydiyyatı qanunvericiliyə uyğun tənzimlənəcək. Rəqəmsal mühitin təhlükəsizliyi uşaqlarımız üçün çox mühümdür. Buna görə də dövlətin rəqəmsal inkişaf siyasətində uşaqların mühafizəsi prioritet məsələlərdən biri kimi qarşıya qoyulub. Qanunvericiliyin təkmilləşdirilməsi uşaqların müdafiəsinə yönəlib. Layihəyə əsasən, 16 yaşı tamam olmamış şəxslərin sosial platformalarda fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilmir. Platformaların siyahısı müvafiq icra hakimiyyəti qurumunun müəyyən etdiyi orqan tərəfindən müəyyən olunur.

Dəyişikliklərə əsasən, provayderin məsuliyyəti və öhdəlikləri müəyyənləşdirilir. Provayder platformada fərdi rəqəmsal hesabın yaradılması zamanı yaş məhdudiyyətinə nəzarəti təmin etmək üçün aşağıdakı texniki üsulların ardıcıl tətbiqini təmin etməlidir:

- şəxsin yaşının bəyan edilməsi;
- şəxsin bəyan edilən yaşının dəqiqləşdirilməsi, habelə 16-18 yaş arası uşağın qanuni nümayəndəsinin fərdi rəqəmsal hesabın yaradılmasına razılığının alınması üçün bank kartı, elektron poçt ünvanı və mobil telefon nömrəsi üzrə məlumatların təqdim edilməsi.

Bu qanunda qeyd edilən məlumatlar əsasında provayder şəxsin, habelə 16-18 yaş arası uşağın qanuni nümayəndəsinin elektron poçt ünvanına və mobil nömrəsinə sorğunun göndərilməsi, habelə ona məxsus bank kartından pul vəsaitinin çıxılması (geri qaytarılması şərtilə) vasitəsilə bəyan edilmiş yaşın yoxlanılmasını həyata keçirir. Qanunda nəzərdə tutulmuş texniki üsullarla aparılan yoxlama nəticəsində istifadəçinin yaşının 16 və ya yuxarı olduğu müəyyən edildikdə, fərdi rəqəmsal hesabın yaradılması təmin edilir.

16-18 yaş arası uşağın fərdi rəqəmsal hesabında provayder tərəfindən yerləşdiriləcək məzmunların və reklamların dairəsi, habelə onun platformadan istifadə saatları uşağın qanuni nümayəndəsi tərəfindən idarə edilir. Belə nəzarətin həyata keçirilməsi üçün provayder platformada zəruri funksionallığı təmin etməlidir. Qanuni nümayəndələr 16-18 yaş arası uşaqların fərdi rəqəmsal hesablarına həmin funksionallıq əsasında aktiv nəzarət edilməsinə, habelə onların sosial şəbəkə platformalarından bu qanunun tələblərinə uyğun şəkildə istifadə etməsinə cavabdehdirlər.

Provayder şəxsin sosial şəbəkə platformasındakı davranışının mütəmadi olaraq təhlil edilməsini, bəyan edilən yaşı ilə bağlı əsaslı şübhələr olduqda təkrar yaş yoxlanılmasını təmin etməlidir. Bu zaman yaş tələbinin pozulması halları aşkar edildikdə həmin şəxsin fərdi rəqəmsal hesaba girişi dərhal məhdudlaşdırılmalıdır. Məhdudiyyət tətbiq edilmiş hesabların idarə edilməsi platformaların daxili qaydalarına uyğun olaraq tənzimlənir.

İstifadəçi yaşının yoxlanılması məqsədilə provayder topladığı fərdi məlumatlarla bağlı aşağıdakı tədbirləri həyata keçirə bilməz:

- onları öz informasiya sistemində saxlamaq və ya üçüncü şəxslərə ötürmək;
- onlardan yaşın yoxlanılması istisna olmaqla, kommersiya, hədəfli reklam (konkret istifadəçiyə yönələn) və ya digər məqsədlər üçün istifadə etmək.

Provayder bu qanunda qeyd olunan yoxlama prosesi başa çatdıqda dərhal toplanılmış fərdi məlumatların silinməsini təmin etməlidir.

Provayder fərdi rəqəmsal hesabı olan şəxsin yetkinlik yaşına çatanadək yerləşdirdiyi məlumatların, paylaşdığı məzmunun və fərdi məlumatlarının özünün, yetkinlik yaşına çatmadığı halda qanuni nümayəndəsinin və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında, həmçinin daxili qaydalarında müəyyən edilmiş hallarda öz təşəbbüsü ilə silinməsini təmin etməlidir.

16-18 yaş arası uşaqların həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün provayder platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal həlləri tətbiq etməlidir. Belə halların qarşısının alınması üzrə provayderin texniki müdaxilə müddəti zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saatdan artıq olmamalıdır.

Provayderlər bu qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

**Mübariz ABDULLAYEV**

---

# 4 ölü, 4 yaralı...

## Azov dənizində həmvətənlərimizin həlak olması və yaralanması ilə nəticələnən hadisənin səbəbləri araşdırılır

Məlum olduğu kimi, iyunun 5-də Azov dənizində heyətində ümumilikdə 25 nəfər Azərbaycan vətəndaşının olduğu iki xarici yük gəmisinə dron hücumları həyata keçirilib. Hadisənin baş verdiyi gün Azərbaycan dövlətinə məxsus olmayan gəmilərə hücum nəticəsində ümumilikdə 5 nəfər vətəndaşımızın həlak olduğu, 3 nəfərin isə yaralandığı açıqlanıb. Bu barədə Rusiya tərəfindən müvafiq məlumat daxil olub. Yaralılar Yeysk şəhər xəstəxanasına yerləşdiriliblər. “Hazırda məsələ ilə bağlı Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti dövlət qurumlarımız, ölkəmizin diplomatik nümayəndəlikləri, habelə müvafiq ölkələrin səlahiyyətli qurumları ilə əlaqələndirmə işləri həyata keçirilir. Rusiyadakı səfirliyimizin bir neçə nəfər əməkdaşı hadisə yerinə yola düşüb. Vətəndaşlarımızın vəziyyəti, onların ölkəyə qaytarılması və zəruri konsulluq dəstəyinin göstərilməsi məsələləri diqqətdə saxlanılır. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını arzulayırıq”, - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadə bildirib.

Rusiya tərəfi də Azov dənizində “Natra” və “Sirkon” teploxodlarına hücumlardan sonra Azərbaycanla sıx əlaqə saxlayır. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın sözlərinə görə, bu hücumlar nəticəsində gəmilərin heyətləri, o cümlədən Azərbaycan vətəndaşları arasında həlak olanlar və yaralananlar var. Rusiya hakimiyyət orqanlarının məlumatına görə, iyunun 5-də, səhər saatlarında Azov dənizində Beliz və Palau bayraqları altında Türkiyədən Rostov-Don limanına üzən “Natra” və “Sirkon” motorlu gəmilərinə hücumlar edilib. Rusiya Xarici İşlər Nazirliyi bəyan edib: “Hər iki gəmidəki heyət, o cümlədən Azərbaycan Respublikası vətəndaşları arasında həlak olanlar və yaralananlar var. Yaralı dənizçilərə yoldan keçən Rusiya gəmisi və RF FSB-sinin sərhəd dəstəsi kömək edib”.



M. Zaxarovanın sözlərinə görə, hadisənin başvermə səbəbləri araşdırılır: “Biz Moskvadakı Azərbaycan səfirliyi və Azərbaycanın Xarici İşlər Nazirliyi ilə sıx əlaqə saxlayırıq. Rusiya tərəfi hadisənin başvermə səbəbləri barədə məlumat almaqda və Azərbaycan vətəndaşlarının konsulluqla əlaqə saxlamasını təmin etməkdə tərəfdaşlarımıza bütün lazımi köməkliyi göstərəcək”.

Qeyd edək ki, hadisə baş verəndən sonra Azərbaycanın Rusiyadakı səfirliyinin əməkdaşları dərhal əraziyə yola düşüblər. Səfirliyin Konsulluq bölməsinin əməkdaşları Yeysk şəhərinə gedib və yaralanmış, habelə xilas edilmiş Azərbaycan vətəndaşlarının yanında olaraq müvafiq konsulluq dəstəyi göstərirlər.

Həyata keçirilən axtarış-xilasetmə tədbirləri çərçivəsində həlak olan şəxslərin kimliklərinin Rusiya Federasiyasının aidiyyəti qurumları tərəfindən müəyyənləşdirilməsi və digər zəruri tədbirlər davam etdirilib. Eyni zamanda, xilas edilmiş Azərbaycan vətəndaşları üçün sənədləşdirmə işlərinin həyata keçirilməsi, onların qayıdış şəhadətnamələri ilə təmin olunması və ölkəyə qayıdışlarının təşkili istiqamətində zəruri tədbirlər görülüb. “Xarici İşlər Nazirliyi məsələni xüsusi nəzarətdə saxlayır və aidiyyəti qurumlarla sıx əlaqələndirmə işləri aparır. Həlak olan şəxslərin kimlikləri, onların cənazələrinin ölkəmizə gətirilməsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək”, - deyə XİN hadisənin ikinci günündə yaydığı məlumatda vurğulayıb.

İyunun 6-da Azərbaycanın Xarici İşlər Nazirliyi yenilənmiş məlumat açıqlayıb. Bu məlumata əsasən, gəmilərə hücum nəticəsində ümumilikdə, 25 nəfər Azərbaycan vətəndaşından 4 nəfər yaralanıb, 4 nəfərin isə həlak olduğu bildirilib. İlkin olaraq vəfat etdiyi elan olunmuş digər bir şəxsin isə Azərbaycan vətəndaşı və azərbaycanəsilli deyil, Rusiya vətəndaşı olduğu müəyyənləşib.

Qeyd olunub ki, həlak olmuş vətəndaşlarımız - 1976-cı il təvəllüdlü Rəcəb Əhədovun və 1997-ci il təvəllüdlü Məhəmməd Əliyevin cəsədləri aşkarlanıb və cənazələrin ölkəmizə göndərilməsi istiqamətində tədbirlər görülür: “Həlak olduğu bildirilən digər iki vətəndaşımızın heyətində olduqları “Zirkon” gəmisi partlayış təhlükəsi olduğuna görə vurulduğu yerdə saxlanılıb. Rusiyanın xilasedici qrupları tərəfindən gəminin limana gətirilməsi üçün təhlükəsizlik tədbirləri görülür. Yalnız axtarış tədbirləri yekunlaşandan sonra iki vətəndaşın aqibəti barədə dəqiq məlumatın verilməsi mümkündür. Yeysk şəhər xəstəxanasına yerləşdirilmiş yaralılar 1998-ci il təvəllüdlü Samid İbadzadə və Rəşad Mədətxanov artıq xəstəxanadan çıxarılıb. 2002-ci il təvəllüdlü Emin Valehov və 1999-cu il təvəllüdlü Namiq Cəfərlinin də vəziyyətləri yaxşıdır və onlar müalicələrini tamamladıqdan sonra xəstəxanadan buraxılacaqlar. Rusiyadakı səfirliyimizin əməkdaşları ərazidədir və vətəndaşlarımıza zəruri dəstəyin göstərilməsi istiqamətində tədbirlər görülür. Bütün vətəndaşlarımız Yeysk şəhərində mehmanxanada yerləşdirilib və ailələri ilə təmasdadırlar. Vətənə qayıtmaq niyyətində olan və sənədləri itmiş vətəndaşlarımıza müvafiq qayıdış şəhadətnamələri ilə təmin olunublar”.

XİN-in iyunun 7-də yaydığı məlumata isə bildirilib ki, səfirliyin Konsulluq bölməsinin əməkdaşları hazırda Yeysk şəhərindədir və yaralanmış, habelə xilas edilmiş Azərbaycan vətəndaşlarının yanında olaraq müvafiq konsulluq dəstəyi göstərirlər. Yaralıların vəziyyəti yaxşıdır, bir neçəsinin qısa müddətdə xəstəxanadan buraxılması nəzərdə tutulur. Rusiya Federasiyasının aidiyyəti qurumları tərəfindən həyata keçirilən axtarış-xilasetmə tədbirləri çərçivəsində həlak olan şəxslərin kimliklərinin müəyyənləşdirilməsi və digər zəruri tədbirlər davam etdirilir.

Eyni zamanda, xilas edilmiş Azərbaycan vətəndaşları üçün sənədləşdirmə işlərinin həyata keçirilməsi, onların qayıdış şəhadətnamələri ilə təmin olunması və ölkəyə qayıdışlarının təşkili istiqamətində zəruri tədbirlər görülür.

Qeyd olunub ki, Xarici İşlər Nazirliyi məsələni xüsusi nəzarətdə saxlayır və aidiyyəti qurumlarla sıx əlaqələndirmə işləri aparır: “Həlak olan şəxslərin kimlikləri, onların cənazələrinin ölkəmizə gətirilməsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək”.

**Nardar BAYRAMLI**

# Beş ayda 16,3 milyard manat

## Büdcədə 2,5 milyard manatdan çox profisit yaranıb

2026-cı ilin yanvar-may aylarında dövlət büdcəsinin icrasında müsbət meyillər davam edib, büdcənin icrası və xəzinə əməliyyatlarının idarə edilməsi sahəsində yüksək nəticələr əldə olunub. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 16 milyard 365,7 milyon manat təşkil edib ki, bu da proqnozu 265 milyon manat və ya 1,6 faiz üstələyib. Büdcə gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 7 milyard 825,3 milyon manat təşkil edərək proqnozdan 130,3 milyon manat və ya 1,7 faiz çoxdur. Vergi daxilolmalarının 6 milyard 187,7 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşüb. Bu isə 1 il əvvələ nisbətən 8,25 faiz, proqnozdan isə 1,8 faiz çoxdur.

Vergi daxilolmalarının artımında biznesin və sahibkarlıq subyektlərinin sayının artımı da mühüm rol oynayıb. Mayın 1-nə olan dövrə qədər ölkə üzrə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,1 faiz artaraq 877. 368, aktiv ƏDV ödəyicilərinin sayı isə 3,5 faiz artaraq 60,431 təşkil edib. Həmin tarixə aktiv təsərrüfat subyektlərinin sayı 3,3 faiz artıb və 240,528 olub.

Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar isə 2 milyard 534 milyon manat, Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 22,2 milyon manat təşkil edib. Büdcəyə sair daxilolmalar 352,4 milyon manat təşkil edib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 281,8 milyon manat təşkil edərək proqnoza qarşı 72,8 faiz icra olunub. Dövlət Neft Fondundan transfert isə 5 milyard 350 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib.

### İcmal büdcənin gəlirləri 20 milyarda yaxınlaşıb

Yanvar-may ayları ərzində dövlət büdcəsinin xərcləri 13 milyard 852,7 milyon manat proqnoza qarşı 13 milyard 375,2 milyon manat məbləğində icra edilib. Ümumilikdə, xəzinə əməliyyatlarına dair müraciətlərin qanunvericiliyin tələblərinə uyğun, sürətli və xətasız icrası təmin edilib, xəzinədarlıq orqanları tərəfindən 501 mindən çox ödəniş tapşırığı vaxtında və tam şəkildə icra edilib

2026-cı ilin yanvar-may ayları ərzində icmal büdcənin gəlirləri 19 milyard 865,3 milyon manat, xərcləri isə 15 milyard 611,5 milyon manat məbləğində icra edilib.

Yanvar-may aylarında dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 122 milyon 161,4 min manat məbləğində vəsait geri qaytarılıb.

Geri qaytarılan vəsaitlər əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına, fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində, mədəniyyət (teatr, kino, muzey, konsert) və tibbi xidmətlərdə, eləcə də işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərində ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir.

Həmçinin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumları, faizlər və maliyyə sanksiyaları da vətəndaşlara geri qaytarılıb.

Qeyd edək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində təsdiq edilib. İcmal büdcənin gəlirləri isə 44 milyard 969,4 milyon manat, xərcləri 48 milyard 839,3 milyon manat müəyyən olunub. Büdcə zərfində müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə xərcləri üçün 8,7 milyard manat həcmində vəsait nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3,5 milyard manat vəsaitin ayrılması planlaşdırılıb. Əhalinin sosial rifahı üçün büdcədən 2026-cı ildə 17,1 milyard xərclənməsi təsdiqlənib.







### Sosial sığorta daxilolmaları 2,8 milyard manatı üstələyib

2026-cı ilin yanvar-may aylarında Azərbaycanda məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2 milyard 806,8 milyon manata yaxın olub, proqnozdan əlavə 159,1 milyon manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 1 milyard 877,7 milyon manatdan çox olub. Həmin dövrdə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 100,2 milyon manat olub, proqnozdan əlavə 4,5 milyon manatdan çox vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 77,7 milyon manatı ötüb.

İcbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 426,1 milyon manatdan çox olub, proqnozdan əlavə 11 milyon manatdan çox vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 284,7 milyon manatı ötüb. Yeri gəlmişkən, yanvar - may ayları ərzində ölkə ərazisində pərakəndə ticarət, ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində, həmçinin tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən həyata keçirilən xidmətlərə, işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar tərəfindən gecələmə və qalma xidmətlərinə görə ödənilmiş ƏDV-nin müvəkkil banklar tərəfindən istehlakçılara qaytarılmış həcmi 87 milyon 305,8 min manat olub. Xarici vətəndaşlar tərəfindən ölkə ərazisində fərdi istehlak üçün alınmış mallara görə dövlət büdcəsindən qaytarılmış ƏDV-nin (“Tax free”) məbləği 3 milyon 434 min manat təşkil edib.

Beləliklə, 2026-cı ilin 5 ayının fiskal və maliyyə göstəriciləri onu əsaslandırır ki, ölkəmizdə iqtisadi inkişaf dinamikası dayanıqlı olmaqla, makroiqtisadi sabitliyi və fiskal yığımları təmin etməkdədir.

*E.CƏFƏRLİ*

# “CNN World”un əsassız iddiaları, qərəzli mövqeyi və təxribatçı dezinformasiyası

## Azərbaycan hər zaman sülhün, sabitliyin tərəfdarı olub

Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar, o cümlədən, bölgədə daha da inkişaf edən sülh prosesi bir çox mərkəzlərin planları ilə üst-üstə düşmür. İllərlə bölgə ilə bağlı fərqli planlar hazırlayan, regionda vaxtilə mövcud olmuş münaqişənin daha da alovlanması və sülhün əldə edilməməsi üçün addımlar atan həmin mərkəzlər yeni yaranan situasiya qarşısında narahatlıq keçirirlər. Nəticə etibarı ilə isə, fərqli dezinformasiyalar, yalanlar və əsassız iddialarla bölgədə diskomfort yaratmağa çalışırlar.

Bir müddət öncə “CNN World”un əsassız iddialardan ibarət məqaləsi də növbəti cəhddir. Qeyd edək ki, məqalədə yer alan fikirlər, irəli sürülən iddialar birmənalı şəkildə yalandır. Rəsmi Bakı hər zaman Cənubi Qafqazda və yaxın coğrafiyamızda sülhün, dincliyin hakim olması üçün səy göstərib. Hətta təcavüzə məruz qaldığımız, torpaqlarımızın işğal altında olduğu dövrlərdə belə Azərbaycan münaqişənin sülh və danışıqlar yolu ilə tənzimlənməsinin tərəfdarı kimi çıxış edib. Paralel olaraq, Bakı hər zaman bəyan edib ki, ölkəmizin ərazisinin heç bir zaman üçüncü ölkələrə hücum və ya hər hansı bir başqa niyyətlə istifadəsinə imkan verilməyib və verilməyəcək.

### İddialar tamamilə əsassızdır...

Bu mənada, “CNN World”un yaydığı məqalə birmənalı şəkildə bölgədə yaranan yeni sülh transformasiyasına, eləcə də Şərq-Qərb istiqaməti yeni iqtisadi perspektivə qarşı yönəlib. Bir sıra Qərb mərkəzlərinin, hətta dövlətlərinin bu kimi yalanları dövriyyəyə buraxmasında məqsəd artıq sonuncu, imzalanma mərhələsinə qədəm qoyan sülh prosesindəki aktivliyin önünə keçməyə hesablanıb. Bu isə yolverilməzdir. “CNN World” bununla bağlı ciddi şəkildə təkzib verməli və üzr istəməlidir. Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin “CNN World”da dərc olunmuş məqalədə Azərbaycanla bağlı əsassız iddialara dair şərhində bildirib ki, məqalədə Azərbaycan ərazisinin guya İrana qarşı hərbi və ya kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi, guya İsrailə məxsus qüvvələrin Azərbaycan ərazisində yerləşdirilməsi barədə əks olunmuş iddialar tamamilə əsassızdır və onları qətiyyətlə rədd edirik. Bildirilib ki, sözügedən məqalədə yer alan iddialar Azərbaycan tərəfindən dəfələrlə təkzib edilib və bu mövqe CNN-in sorğusuna cavab olaraq əvvəlcədən redaksiyaya rəsmi qaydada təqdim edilib. Heç bir tutarlı sübut ortaya qoyulmadan, anonim mənbələrə əsaslanan və Azərbaycanın rəsmi mövqeyini nəzərə almayan iddiaların yayımlanması jurnalistikanın obyektivlik, qərəzsizlik və peşəkar etika prinsipləri ilə ziddiyyət təşkil edir.

Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə olunması barədə iddiaların heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

“Azərbaycan regionda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin təşviqinə sadiqdir. Bu kimi əsassız və heç bir sübuta əsaslanmayan iddialar növbəti dezinformasiya cəhdidir. CNN-dən əsassız iddiaların yayıldığı bu məqalənin təkzib edilməsini gözləyirik”, - deyə şərhdə qeyd edilib.



Bu, həm də Azərbaycana qarşı növbəti informasiya təxribatıdır. Azərbaycan son illərdə mühüm qlobal tədbirlərə ev sahibliyi etməklə beynəlxalq aləmin diqqətini cəlb edir - rəsmi Bakı bir çox sosial, eləcə də ekoloji problemləri, qlobal şəhərsalma kimi məsələlərin həlli ilə bağlı müzakirələr təşkil edir, çıxış yollarının tapılması, bu sahələrlə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı addımlar atır. Nəticə etibarı ilə Bakı özünü qlobal aktor kimi təsdiqləyir. Bu isə anti-Azərbaycan mərkəzləri narahat edir - Azərbaycanın qlobal miqyasda şöhrətinin artması, nüfuzunun, imicinin möhkəmlənməsi, eləcə də regional liderliyinin qəbul olunması yeni nizamda ölkəmizin mövqelərini daha da möhkəmləndirir. Bu mənada, əl atılan təxribat ölkəmizin yeni dövrdə əldə etdiyi nailiyyətlərə qarşı

### Dezinformasiya kampaniyalarının aləti...

qısqanclıqlardan yaranır. Qeyd edək ki, Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının bu məqsədyönlü informasiya təxribatına dair bəyanatında da bildirilir ki, 2026-cı il iyunun 5-də CNN transmilli media şirkəti “İsrail-İran müharibəsi zamanı region üzrə gizli şəbəkənin bir hissəsi olaraq Azərbaycana qoşun göndərdi” başlıqlı məqaləsində adları açıqlanmayan mənbələrə istinad edərək Azərbaycana qarşı informasiya təxribatına yol verib. Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası bu məlumatın Yaxın Şərqdə sülh prosesinə, habelə Azərbaycanın milli maraqlarına və beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə yayıldığını və dezinformasiya kampaniyasının bir hissəsi olduğunu bəyan edir: “İlk növbədə, qeyd olunmalıdır ki, mühüm diplomatik və siyasi hadisələr, qlobal beynəlxalq tədbirlər və ya proseslərin astanasında CNN və oxşar media quruluşları tərəfindən Azərbaycana qarşı hədəflənmiş informasiya kampaniyasının aparılması artıq birinci hal deyil.

Komissiyanın apardığı monitorinq zamanı müəyyən edilib ki, adıçəkilən məqalə paylaşıldıqdan dərhal sonra “fürsətçi amplifikasiya” taktikası və prosesi nəticəsində bu anti-Azərbaycan narrativ dünya üzrə əksər nüfuzlu media orqanlarında, habelə “X”, “Threads”, “Facebook” və “Telegram” kimi sosial media platformalarında sürətlə yayılaraq kampaniya halını alıb.

Məqalə müəlliflərinin sonda daim Azərbaycanın əleyhinə olan mövqeyi ilə seçilən və vaxtilə “Soros Fondu”nun maliyyələşdirdiyi media layihələrində fəaliyyət göstərən şəxsə müraciət etməsi isə məsələnin haradan qaynaqlandığını ehtimal etməyə əsas verir.

Müvafiq dövlət qurumlarımız tərəfindən də dəfələrlə bəyan edildiyi kimi, ölkəmizdə heç bir xarici dövlətin hərbi qüvvələri (qoşunları) və ya bazaları yoxdur və Azərbaycan Respublikasının ərazisindən üçüncü dövlətlərə qarşı hansısa qeyri-dost fəaliyyətlərin aparılması mümkün deyil”.

Komissiya CNN-i bu məqalənin əsassızlığı barədə açıqlama verməyə və ya iddialarını sübut edəcək faktları ictimaiyyətə təqdim etməyə çağırıb. Bəyanatda qeyd olunub ki, əks halda CNN doğrulanmamış və anonim mənbələrə söykənərək geniş beynəlxalq əhatə dairəsinə malik materiallar yaymaqla hibrid təhdidlərin vacib komponentləri sayılan informasiya əməliyyatları, saxta narrativlər və dezinformasiya kampaniyalarında alət rolunu oynadığını bir daha təsdiq etmiş olacaq.

### Təkzib verməli, Azərbaycandan üzr istəməlidir...

Bu kimi böhtan və təxribat xarakterli məqalələr həm də qlobal informasiya məkanında CNN-in özünün nüfuzuna bir zərbədir. Bir media strukturunun əsassız, dəqiqləşdirilməmiş və istinad edilməmiş, eləcə də özündə təxribatçı ştrixləri əks etdirən məqalə dərc etməsi yalnız manipulyasiya cəhdi kimi qiymətləndirilə bilər. Qeyd edək ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında da bildirilir ki, dünyanın tanınmış transmilli media şirkətinin heç bir fakta istinad etmədən açıq-aşkar feyk məlumat tirajlaması məqsədli şəkildə həyata keçirilmiş kobud informasiya manipulyasiyası hesab olunur. “Dezinformasiya yaymaqla media etikasının dəyərlərinə və xəbərdə balansın qorunması kimi peşəkar jurnalistikanın təməl prinsiplərinə məhəl qoymayan CNN özünün reputasiyasını ləkələməklə yanaşı, həm də hibrid müharibənin propaqanda aləti kimi çıxış edib. CNN-in yaydığı dezinformasiya Azərbaycana və bütünlükdə regional təhlükəsizliyə qarşı yönəlmiş siyasi təxribatdır və bu məlumatın yayılması beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaqla yanaşı, regional sabitliyə və dövlətlərarası münasibətlərə zərbə vurmağa və regionda gərginlik yaratmağa hesablanıb”, - deyə açıqlamada vurğulanıb. Bildirilib ki, dəfələrlə ən yüksək rəsmi səviyyədə bəyan edilib ki, Azərbaycan Respublikası ərazisindən heç bir halda İran İslam Respublikasına qarşı istifadə olunmayıb və bu qəbildən olan uydurma, qərəzli məlumatlar kobud informasiya manipulyasiyasıdır. Agentlik regional təhlükəsizliyi təhdid edən, media etikası və jurnalist peşəkarlığı prinsiplərinə zidd formada məlumat yayaraq ictimai rəyi çaşdırmağa çalışan CNN-dən təkzib verməsini və Azərbaycandan üzr istəməsini tələb edib.

*P.İSMAYILOV*

# Ermənistanda parlament seçkiləri...

## Paşinyanın partiyası qalib gəldi

Ermənistanda aylardır davam edən seçki marafonu başa çatıb. İyunun 7-də baş tutan seçkidə on səkkiz siyasi qüvvə iştirak edib və səsvermə proporsional sistem üzrə keçirilib. Qanuni olaraq müəyyən edilmiş minimum iştirak həddi olmayıb. Ermənistanda təxminən 2,5 milyon seçicinin səs vermək hüququ var. Xaricdə seçki məntəqələri qanunla nəzərdə tutulmayıb, amma xaricdə çalışan erməni diplomatları üçün elektron səsvermə təşkil edilib. Qeyd edək ki, Ermənistan qanunvericiliyə görə, partiyalar üçün keçid həddi 4 faiz, üç partiyadan ibarət bloklar üçün 8 faiz, dörd və ya daha çox partiyadan ibarət bloklar üçün isə 10 faiz olub. Seçki Məcəlləsinə görə, sabit parlament çoxluğu deputat yerlərinin 54 faizini qazanmaqla təmin edilir. Seçki nəticələri və ya siyasi koalisiyanın yaradılması yolu ilə sabit parlament çoxluğu formalaşmasa, təkrar seçki keçirilir.



**İlkin nəticələr...**

Qeyd edək ki, dünən günorta saatlarında Ermənistanın Mərkəzi Seçki Komissiyasının sədri Vahaqn Hovakimyan Ermənistanda keçirilən parlament seçkilərinin ilkin nəticələrini açıqlayıb. Hovakimyan 7 iyun parlament seçkiləri zamanı nəticələrə təsir edə biləcək heç bir qanun pozuntusunun olmadığını vurğulayıb. Bildirilib ki, 2005 seçki məntəqəsinin nəticələri yekunlaşdırılıb, seçicilərin sayı 1 milyon 477 min 736 nəfərdir. Ermənistan mətbuatının yazdığına və Vahaqn Hovakimyanın bəyan etdiyi məlumatlara, MSK-nın protokoluna əsasən, 4 siyasi qüvvəyə verilən səslər aşağıdakı kimi paylanıb:

- Vətəndaş Müqaviləsi Partiyası - 727.160 və ya 49.825 faiz.
- Güclü Ermənistan Alyansı - 340.88 və ya 23.281 faiz.
- Ermənistan Alyansı - 145.113 və ya 9.934 faiz.
- Çiçəklənən Ermənistan Partiyası - 58.378 və ya 3.996 faiz.

Hovakimyan vurğulayıb ki, bu rəqəmlər ilkindir və qarşıda hələ də düzəliş və yenidən hesablama mərhələsi var, bu mərhələdə nəticələrin tam dəqiq olması üçün bütün səylər göstəriləcək. Hovakimyan həmçinin Mərkəzi Seçki Komissiyasının veb saytında dərc olunan məlumatlara elektron səsvermənin nəticələrinin daxil edilmədiyini, eyni zamanda, veb saytın sistemi tərəfindən aparılan faiz hesablamasının yüzdə birinə qədər yuvarlaqlaşdırıldığını da açıqlayıb. "Bu halda, biz bir səsin həddinə çox yaxın olan siyasi qüvvə üçün həlledici ola biləcəyi bir vəziyyətlə qarşılaşırıq. Hamının diqqətini buna cəlb etmək istərdim ki, bunlar ilkin nəticələrdir. Biz düzəliş və yenidən hesablama prosesindəyik, yəni nəticələrin bir səsə qədər dəqiq olması üçün bütün səylərimizi göstərməliyik və əldə etdiyimiz nəticə ideal olaraq Ermənistan Respublikası seçicilərinin iradəsini əks etdirməlidir", - deyə Hovakimyan qeyd edib. Qeyd etmək lazımdır ki, Mərkəzi Seçki Komissiyasının veb saytında səsvermə nəticələrinin dərc edilməsi üçün onlayn sistemə əsasən, Çiçəklənən Ermənistan Partiyasının səslərin 4 faizini aldığı göstərilmişdi ki, bu da keçid həddini təmin edir. Lakin sonradan Mərkəzi Seçki Komissiyasının sədri Vaaqn Hovakimyanın təqdim etdiyi məlumatlardan məlum oldu ki, Çiçəklənən Ermənistan Partiyası səslərin 4 faizini toplamayıb.

Ermənistan mətbuatı yazır ki, elan edilmiş ilkin nəticələrə görə, Vətəndaş Müqaviləsi Partiyası parlamentdə mütləq çoxluğu - 64 yer qazanır. Güclü Ermənistan 29, Ermənistan bloku isə 12 yer əldə edir. Bu halda Vətəndaş Müqaviləsi Partiyası hökuməti təkbaşına formalaşdıracaq və baş naziri seçmək imkanı qazanacaq. Mandatlardan imtinanın mümkünlüyünü gəldikdə isə, bu hal parlamentin formalaşmasına mane olmayacaq və mandatlar digər siyasi qüvvələrə verilməyəcək.

**"Üçbaşlı müharibə partiyası məğlub oldu"**

Ermənistanın Baş naziri Nikol Paşinyan xalqını 7 iyun 2026-cı il parlament seçkilərində qələbə münasibətilə təbrik edib. Baş nazir bu barədə dünən Ermənistan parlamentinin daimi komitələrinin iclaslarında 2025-ci il üçün dövlət büdcəsinin icrası ilə bağlı illik hesabatın müzakirəsi zamanı çıxışında bildirib. "Əvvəla, xalqımızı 7 iyun 2026-cı il seçkilərində qələbə münasibətilə təbrik etmək istərdim. Erməni xalqı dövləti, müstəqilliyi, gələcəyi, sülhü, Ermənistan Respublikasını müdafiə etmək üçün ayağa qalxdı. Və qeyd etməliyəm ki, üçbaşlı müharibə partiyası (Güclü Ermənistan bloku, Ermənistan bloku və Çiçəklənən Ermənistan Partiyası) məğlub oldu. Sözlərim və planlarım dəyişməyib. Bu qüvvələrin liderləri (Samvel Karapetyan, Robert Koçaryan və Qaqik Tsarukyan) qanuna uyğun olaraq məsuliyyət daşımalıdırlar. Onlar hər kəsə bəlli olan işlər üçün cinayət məsuliyyətinə cəlb olunmalı və cinayətkar oliqarxiyanın müsadirə edilməsi çox sürətli bir templə - qanunsuz aktivlərin müsadirə edilməsi, cinayət işləri, dövlət maraqlarının qorunması sistemi və ictimai maraqların qorunması sistemi vasitəsilə davam etməlidir. Nəticədə, bu siyasi qüvvələr siyasi qüvvələr deyil; onlar cinayətkar-oliqarxik sistemin nümayəndələridir və Ermənistanda fəaliyyət sahəsi olmamalıdır. Üçbaşlı müharibə casusu partiyası Ermənistandan silinməlidir. Siyasi sahədə biz bunu etməliyik", - deyə Paşinyan bildirib.

**Sülh müqaviləsi...**

Qeyd edək ki, Paşinyan iyunun 7-də seçki bitdikdən sonra partiyasının qələbəsini qeyd etmək üçün qərargaha gəlib. O, seçki komissiyalarında fəaliyyət göstərən partiyadaşlarına və protokollara istinad edərək rəhbərlik etdiyi partiyanın qələbəsini elan edib. Ardınca mətbuat konfransı keçirən Paşinyan bildirib ki, son parlament seçkilərində erməni xalqı sülhə, regional inkişafa və əməkdaşlığa səs verib. "Ümid edirəm ki, həm Türkiyə, həm də Azərbaycandan müsbət cavab olacaq. Ermənistan və Azərbaycan arasında sülhü təsis etməliyik, həmçinin Türkiyə ilə sərhədimizi açmalıyıq - yəni Türkiyə sərhədi açmalıdır. Bundan əlavə, diplomatik münasibətlər qurmalıyıq. Yeri gəlmişkən, Ermənistan mallarının idxalı və ixracı üçün Axalkalaki-Qars dəmir yolunun açılması qərarına görə minnətdarıq. Türkiyə ilə münasibətlərimizdə çox yaxşı bir impulsumuz var, amma diplomatik münasibətlər qurmaq və tam açıq sərhədə nail olmaq üçün bu impulsu davam etdirməliyik", - deyə Paşinyan qeyd edib. Baş nazir xatırladıb ki, Ermənistan və Azərbaycan artıq sülh müqaviləsini paraflayıblar. "Biz onu imzalamalıyıq. TRIPP layihəsini mümkün qədər tez başlatmalıyıq, bu da region üçün dönüş nöqtəsidir. Bu, regionumuzun blokadasının aradan qaldırılması deməkdir və bu, çox böyük xəbərdir, çünki regionumuz çıxılmaz vəziyyətdən yol ayrıcına çevrilir", - deyə o, bildirib.

**Ermənistan həm Aİ, həm də AİI ilə münasibətləri davam etdirəcək...**

Paşinyan Ermənistanın Avropaya inteqrasiya yolunu davam etdirəcəyini də qeyd edib. Brifinqdə deyib ki, Ermənistan Avropa İttifaqı ilə yaxınlaşma kursunu davam etdirəcək, eyni zamanda Avrasiya İqtisadi İttifaqında iştirakını və üzvlüyünü qoruyub saxlayacaq. Ölkəsinin Rusiya və digər AİI üzv dövlətləri ilə münasibətlərini inkişaf etdirməyə davam edəcəyini vurğulayan Paşinyan vurğulayıb ki, ölkəsi AİI Birliyi daxilində əlaqələrin möhkəmləndirilməsini mütləq təşviq edəcək.

**MDB missiyası: seçkilər qanuna uyğun keçirilib**

Ermənistandakı seçki prosesini müşahidə edən MDB müşahidə missiyasının rəhbəri Nurlan Seitimov bildirib ki, 7 iyunda Ermənistanda keçirilən parlament seçkiləri ölkə Konstitusiyasına və Seçki Məcəlləsinə uyğun olaraq keçirilib. "MDB müşahidə missiyası Ermənistan Respublikası Milli Məclisinə seçkilərin Konstitusiyaya və Seçki Məcəlləsinə uyğun olaraq keçirildiyi, çoxpartiyalı olduğu, açıq və rəqabətli olduğu qənaətinə gəlir", - missiya rəhbəri bazar ertəsi keçirilən mətbuat konfransında deyib.

**Avropadan təbriklər...**

Seçkilərdən sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen Nikol Paşinyanı Vətəndaş Müqaviləsi Partiyasının qələbəsi münasibətilə təbrik edib. Eyni zamanda, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaja Kallas Ermənistandakı parlament seçkilərinin nəticələrini yüksək qiymətləndirərək, Aİ-nin islahatların həyata keçirilməsində Ermənistana kömək etmək üçün əlindən gələni etdiyini vurğulayıb. Avropa Şurasının prezidenti Antonio Costa da Ermənistanın Baş naziri Nikol Paşinyanı Vətəndaş Müqaviləsi Partiyasının parlament seçkilərindəki qələbəsi münasibətilə təbrik etdi. Antonio Costa özünün "X" mikrobloqunda yazıb: "Erməni xalqı sülhə, sabitliyə və qonşuları ilə daha sıx əməkdaşlığa əsaslanan gələcəyə səs verdi. Əldə edilən nəticələrə görə Nikol Paşinyanı təbrik edirəm".

Qeyd edək ki, Fransa Prezidenti Emmanuel Makron, Qazaxıstan Prezidenti Kasım Jomart Tokayev və bir çox dövlət, hökumət başçıları da Paşinyanı qələbə münasibətilə təbrik ediblər.

***SADİQ***

# Yaxın Şərqdə münaqişə yenidən alovlanır

## İran və İsrailin qarşılıqlı hücumları danışıqlar prosesini poza bilər

ABŞ-la İran arasında atəşkəs əldə edildikdən sonra tərəflər yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Əksinə, son günlər tərəflər arasında gərginlik artıb, qarşılıqlı raket hücumları baş verib. ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.

### İran İsrailin şimalına hücum edib

Bundan əlavə, atəşkəs elan olunandan sonra ilk dəfə İranla İsrail arasında qarşılıqlı hücumlar baş verib. Belə ki, iyunun 7-də İran İsrail ərazisinə raketlər atıb. İranın "Xatəm əl-Ənbiya" Hərbi Komandanlığının Mərkəzi Qərargahının komandanı Əli Abdullahi bəyan edib ki, İsrail Livanın cənubuna hücumlarını dayandırmalı, əks halda bölgədəki müttəfiqlərinə də təsir edəcək daha güclü və dağıdıcı zərbələrlə üzləşəcək. İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) isə bildirib ki, zərbələrin hədəfi Livana hücumların həyata keçirildiyi İsrailin Ramat-David hava bazası olub.

İsrailə qarşı hücum zamanı "Xeybarşekan" bərk yanacaqlı ballistik raketlərdən istifadə edilib. "Tasnim" xəbər agentliyinin məlumatına görə, raketin uçuş məsafəsi 1450 kilometr, çəkisi 4500 kiloqram, uzunluğu isə 10 metrdir. "Xeybarşekan" İslam İnqilabı Keşikçiləri Korpusunun üçüncü nəsil raketləri sırasına daxildir və hava hücumundan müdafiə sistemlərini dəf etməyə imkan verən xüsusiyyətlərə malikdir. Agentliyin məlumatında qeyd olunur ki, raket müasir müdafiə sistemlərinə qarşı effektivliyi artırmaq məqsədilə xüsusi texniki imkanlarla təchiz edilib.

İsrail tərəfi isə bəyan edib ki, Hayfa ərazisi də daxil olmaqla, şimali İsrailin bir çox bölgəsində təyyarə xəbərdarlıqları edilib. Vurğulanıb ki, İrandan İsrailə atılan bütün raketlər uğurla ələ keçirilib. Lakin ordu İran ərazisindən yeni raket atışlarını qeydə alır və təhlükə hələ də qalmaqdadır. "Hava hücumundan müdafiə qüvvələri hazırda təhdidləri müəyyən edir və ələ keçirir", - deyə məlumatda qeyd olunub.

Bu arada Qətər hakimiyyəti sosial mediada İranın İsrailə raket zərbələrindən sonra əmirliyin hava məkanının bağlandığı və hava nəqliyyatının dayandırıldığı barədə yayılan məlumatları təkzib edib. Ölkənin Mülki Aviasiya Baş İdarəsinin açıqlamasında bildirilib ki, uçuş heyətinə verilən bildiriş (NOTAM) yalnız alternativ hava yollarının müəyyən edilməsinə yönəlib.



### Donald Tramp tərəflərə çağırış edib

Tramp İsrailin İrana cavab verməyəcəyinə ümid etdiyini deyib. O bildirib ki, əgər Benyamin Netanyahu cavab hücumu həyata keçirsə, bu, uzunmüddətli qarşıdurmaya səbəb ola bilər: "Benyamin Netanyahuya zəng edib, İrana cavab verməməsini istəyəcəyəm. Hər iki tərəf artıq öz addımını atıb. Həm İsrail, həm də İran zərbə endirib. Yeni bir zərbəyə ehtiyac yoxdur". Onun sözlərinə görə, İsrailin Baş naziri Benyamin Netanyahu ABŞ və İran arasında əldə ediləcək istənilən razılaşmanı qəbul etməli olacaq. "Onun başqa seçimi olmayacaq. Bütün qərarları mən verirəm, o yox", - deyə ABŞ lideri vurğulayıb.

Tramp, həmçinin qeyd edib ki, İranın İsrailə raket hücumları Vaşinqtonun Tehranla diplomatik həll yolu axtarmaq niyyətinə təsir göstərməyib: "Bu, razılaşmaya heç bir şəkildə təsir etməyəcək. Həmin hücumlar uğurlu olmadı".

Lakin İsrail Trampın tövsiyəsinə baxmayaraq, İranın hava hücumundan müdafiə sistemlərinə zərbələr endirib. İsrail Hərbi Hava Qüvvələri İranın müdafiə və müşahidə qabiliyyətlərini hədəf alan bir sıra əməliyyatlar həyata keçirib. Bundan əlavə, İsrail ordusu İranın cənub-qərbində yerləşən Bəndər Mahşəhr şəhərindəki neft-kimya kompleksinə zərbə endirdiyini açıqlayıb. "Əl-Ərəbiyyə" telekanalının xəbərinə görə, İsrail ordusunun yaydığı bəyanatda hücumun hərbi kəşfiyyatın məlumatları əsasında hava qüvvələri tərəfindən həyata keçirildiyi bildirilib. Qeyd olunub ki, Mahşəhrdə yerləşən neft-kimya kompleksinin daxilində bir neçə obyekt hədəfə alınıb.

İranın "Fars" agentliyi isə Xuzistan vilayətinin təhlükəsizlik məsələləri üzrə qubernator müavininə istinadla bildirib ki, Bəndər Mahşəhr yaxınlığında yerləşən "Karun" neft-kimya zavodu hücuma məruz qalıb. İsrail tərəfindən atılan mərminin partlaması nəticəsində müəssisənin bəzi hissələrinə ziyan dəyib.

ABŞ Prezidenti Donald Tramp isə tərəflərə raket zərbələrini dayandırmağı tövsiyə edib. "Mən İrana aşağıdakıları təklif edərdim: raketlərinizi buraxdınız, bəsdir. Danışıqlar masasına qayıdın və razılaşma əldə edin. Deyərdim ki, gələn həftənin bazar ertəsi, çərşənbə axşamı və ya çərşənbə günü saziş imzalanacaq", - deyə o əlavə edib. Tramp İsrailin Beyruta endirdiyi zərbələrdən narazı olduğunu da gizlətməyib. Bundan başqa, ABŞ Prezidenti ümid etdiyini bildirib ki, İsrail ilə İran arasında gərginlik Tehranla Vaşinqton arasında mümkün razılaşmanı pozmayacaq: "İranla yekun razılaşmaya çox yaxınıq. Bu, yaxşı bir razılaşma olacaq. İndi baş verənlərə görə onun dağılmasını istəmirəm".

### Tehran Vaşinqtonla məlumat mübadiləsini davam etdirəcək

Vəziyyətin gərginləşməsi fonunda ABŞ Prezidenti Donald Tramp Vaşinqton və Tehran arasında danışıqların nəticəsiz qalacağı təqdirdə, hərbi tapşırıqları yerinə yetirmək üçün İran ərazisinə xüsusi təyinatlı qüvvələrin daxil olacağını istisna etməyib. Donald Tramp bu barədə "Financial Times" qəzetinə açıqlamasında deyib: "Burada iki seçim var. Ya İrana desant çıxarıb əvvəllər hərbi yolla əhdəsindən gələ bilmədiyimiz işlərlə məşğul olacağıq, ya da İranın blokadasını davam etdirəcəyik". O, həmçinin qeyd edib ki, İsraillə İran arasındakı hazırkı gərginlik Vaşinqton və Tehran arasındakı danışıqlar prosesinə təsir göstərməməlidir: "Bu, heç bir şəkildə razılaşmaya təsir göstərməyəcək. Düşünürəm ki, razılaşma baş tutacaq".

Öz növbəsində İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmail Beqai bəyan edib ki, Tehran ABŞ ilə məlumat mübadiləsini davam etdirəcək, lakin son hadisələr etimadsızlıq mühitini dərinləşdirib: "Şübhəsiz ki, son hadisələr etimadsızlıq mühitini artırıb. Son 24 saat ərzində baş verənlər diplomatik prosesdəki əlverişsiz vəziyyəti daha da dərinləşdirib".

### Kallas: Yaxın Şərqdə vəziyyət daha da gərginləşə bilər

Bu arada Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallas İsrail ilə İran arasında son hərbi toqquşmalardan sonra Yaxın Şərqdə vəziyyətin daha da gərginləşə biləcəyi barədə xəbərdarlıq edib. O, Nikosiyada keçirilən Aİ müdafiə nazirlərinin görüşü ərəfəsində media nümayəndələrinə açıqlamasında tərəfləri hərbi qarşıdurmanı genişləndirmək əvəzinə, danışıqlar masasına əyləşərək razılıq əldə etməyə çağırıb: "Hesab edirəm ki, regionun ehtiyacı gərginliyin artmasına deyil, tərəflərin danışıqlar masası arxasına əyləşərək razılığa gəlməsinədir. Təbii ki, biz Aİ-nin ASPIDES əməliyyatını da müzakirə edəcəyik və bu əməliyyat çərçivəsində regionda daha hansı addımların atıla biləcəyini nəzərdən keçirəcəyik. Yeri gəlmişkən, bu gün İrana qarşı ilk dəfə olaraq naviqasiya azadlığı ilə bağlı sanksiyalar tətbiq olunacaq".

Aİ ölkələrinin müdafiə nazirlərinin naviqasiya azadlığı və ümumilikdə dəniz təhlükəsizliyi mövzusunda "kölgə donanması" məsələsini də müzakirə edəcəklərini vurğulayan K.Kallas bildirib: "Aİ-nin IRINI əməliyyatı fəaliyyət qaydalarını dəyişib və artıq gəmilərdə yoxlamalar aparmağa başlayıb. Məqsəd müxtəlif ölkələrin bu tip gəmilərlə bağlı tətbiq etdiyi ən yaxşı təcrübələri uyğunlaşdırmaqdır. Çünki həmin gəmilər, həqiqətən də ciddi təhlükə yaradır".

***N.BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Çətin günlərin ən etibarlı dayağı!

## Dostlara həsr olunan gündür...

Maddi dəyərlərin çox vaxt mənəvi dəyərləri kölgədə qoyduğu, sürətlə dəyişən həyat ritminin insanları bir-birindən uzaqlaşdırdığı dövrdə dostluq anlayışı əhəmiyyətini itirməyib. Sevindirici haldır ki, dostluq bu gün də cəmiyyətin sağlam mənəvi dayaqlarından biri kimi böyük məna kəsb edir. İnsanın ən çətin anlarında ona dayaq olan, sevincini bölüşən, uğurlarına paxıllıq etmədən sevinən və məğlubiyyətləri qarşısında əlindən tutaraq onu ayaqda saxlamağa çalışan məhz həqiqi dostdur. Dostluq sadəcə insanların bir-biri ilə ünsiyyət qurması və ya müəyyən maraqlar ətrafında birləşməsi deyil, qarşılıqlı etimadın, sədaqətin, hörmətin və mənəvi bağlılığın yaratdığı körpüdür. Zamanın sərt sınaqları, həyatın çətin yolları və müxtəlif maneələr belə həmin körpünü dağıda bilmir, əksinə, onu daha da möhkəmləndirərək insanların bir-birinə olan bağlılığını gücləndirir.

Tarixə nəzər saldıqda görürük ki, böyük şəxsiyyətlərin, görkəmli alimlərin, yazıçıların və dövlət adamlarının həyatında dostluq münasibətləri mühüm rol oynayıb, onların uğurlarının arxasında çox vaxt sədaqətli dostların mənəvi dəstəyi dayanıb. Məhz bu fakt bir daha göstərir ki, dostluq yalnız fərdi münasibət deyil, həm də cəmiyyətin inkişafına təsir edən mühüm sosial və mənəvi dəyərdir.

Dost sözü fars mənşəlidir, “sevilən adam, yoldaş, sevgili,yar” mənalarını verir. Dostluq fərdlərin emosional rifahı, psixoloji dayanıqlılığı və cəmiyyətdə sosial birliyin təmin edilməsi üçün əvəzolunmaz təməldir. İnsanların təkliyini aradan qaldırmaqla yanaşı, empatiya, sevgi, qarşılıqlı hörmət və güvən kimi ali dəyərlərin nəsildən-nəslə ötürülməsinin ən başlıca vasitəsidir.

Dostluğun bəşəriyyət üçün daşıdığı bu ali missiya aşağıdakı aspektlərdə özünü büruzə verir:

Emosional və psixoloji dəstək: Əsl dost stresli və çətin anlarda fərdə təhlükəsizlik və mənəvi rahatlıq hissi verir. Elmi və sosial araşdırmalar göstərir ki, güclü dostluq bağları depressiya riskini azaldır və insanın həyatdan aldığı məmnuniyyəti artırır.

Mədəniyyətlərarası körpülər: Fərdlər arasında başlayan dostluq münasibətləri qlobal miqyasda xalqlar, ölkələr və mədəniyyətlər arasında sülh səylərini ruhlandırır.

Sosial harmoniya və birlik: İnsan sosial varlıqdır və cəmiyyətdə sağlam münasibətlər şəbəkəsi məhz təmənnasız dostluqlar üzərində qurulur.

Unutmaq olmaz ki, həyat yolunda insanın qarşısına müxtəlif insanlar çıxır, lakin onların içərisində yalnız bir neçəsi həqiqətən dost adını qazanır. Həmin insanlar ömrün ən qiymətli xatirələrinin, ən səmimi söhbətlərinin və ən etibarlı dayaqlarının müəllifinə çevrilirlər. Buna görə də dostluq təkcə iki insan arasında qurulan münasibət deyil, insanlığın özünü yaşadan, cəmiyyətləri birləşdirən və mənəvi dəyərləri qoruyan böyük bir məktəbdir.

Təsadüfi deyil ki, dünyanın müxtəlif ölkələrində bu bəşəri dəyərin əhəmiyyətini vurğulamaq üçün xüsusi günlər qeyd olunur. Bunlardan biri də hər il iyunun 9-da müxtəlif ölkələrdə qeyd olunan Beynəlxalq Dostlar Günüdür. Bu gün bizə bir daha xatırladır ki, dünyanın dəyişən siyasi və iqtisadi reallıqları fonunda insan münasibətlərinin səmimiyyəti öz əhəmiyyətini itirmir, əksinə, daha da qiymətli olur. Məhz dostluq insanların bir-birini anlamasına, dəstəkləməsinə və gələcəyə daha böyük ümidlə baxmasına imkan yaradır.

Bu əlamətdar gündə bütün dostlara sədaqət, etibar və qarşılıqlı hörmət üzərində qurulan münasibətlərin daim möhkəm qalmasını arzulayır, hər kəsi dostluğun gücünü qorumağa və paylaşmağa çağırırıq. Çünki bəzən bir dostun varlığı insanın həyatında bütöv bir dünyaya bərabər olur.

*Yeganə BAYRAMOVA*

# Rahatlıq, yoxsa yeni risk mənbəyi?

## Sürücülərin və piyadaların skuter problemi...

Son zamanlar ölkəmizdə mikromobillik növlərinə maraq artmaqdadır. Ekoloji cəhətdən əlverişli olan bu vasitələrin ən populyarı isə elektrik skuterlərdir. Bu nəqliyyat vasitəsi şəhər həyatına yeni bir dinamika və hərəkətlilik gətirərək insanların gündəlik rutinlərini əyləncəli və çevik bir təcrübəyə çevirir. Lakin qısa məsafəni qət etmək üçün istifadə edilən bu vasitə bəzi narahatlıqlara səbəb olur. İnsanların çoxluq təşkil etdiyi məkanlarda skuterlər təhlükə saçır. Skuterlər üçün xüsusi müəyyənləşdirilmiş yolun olmaması qəzaların hər gün artmasına şərait yaradır.

Bu nəqliyyat vasitələrini sürənlərin yol hərəkəti qaydalarını pozması, piyadalarla eyni səkiyə çıxması, sükan arxasında qoruyucu vasitələrdən istifadə etməməsi və sürət həddini aşması qəza risklərini artırır. Hazırda skuterlər qanunvericilikdə “kiçik elektrik nəqliyyat vasitəsi” kimi tanınır. Onlar üçün ayrıca yol zolaqları tələb olunmur, velosiped zolaqları eyni zamanda bu tip elektrik vasitələrinin də hərəkəti üçün nəzərdə tutulub.

**İnsanların narazılığına səbəb olur...**

Nəqliyyat üzrə ekspert İlqar Hüseynli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, skuterlərin müsbət tərəfləri olduğu kimi, mənfi tərəfləri də var: “Mənfi tərəfi ondan ibarətdir ki, skuterlər özündə kifayət qədər təhlükəni ehtiva edir. Bəzən yolun əsas hərəkət hissəsində skuterlərin idarə olunmasının şahidi oluruq. Eləcə də insanların ən çox üz tutduğu- parklarda, istirahət məkanlarında skuterlərə rast gəlirik. Skuterlər sürət həddinə görə dəyişir. Bəzən sürət həddi çox olan skuterləri idarə etmək olduqca çətindir. Sürəti saatda 50 kilometrə qədər olan skuterlər var ki, bunları idarə etmək olmur. İnsanların çox olduğu yerlərdə belə sürətdə olan skuterlər təhlükəli vəziyyət yaradır. Bu da insanların narazılığına səbəb olur. İnsanlar skuterlərdən çox ehtiyat edir. Xüsusən də azyaşlı uşaqlar parklarda oynayan zaman skuterlərdən dolayı təhlükəli vəziyyətlə qarşılaşa bilərlər.

**Nəzarət mexanizmi olmalıdır**

Ekspertin fikrincə, hətta insanların istifadə etdikləri əsas yolda bu vasitənin saxlanılması da doğru deyil: “Sukterlərə nəzarət mexanizmi olmalıdır. Qanunvericilikdə skuter nəqliyyat vasitəsi hesab edilmədiyindən bu vasitənin xüsusi müəyyənləşdirilmiş yeri mövcud deyil. Düşünürəm ki, bu vasitə üçün xüsusi ayrılmış yerlər olsa, daha yaxşı olar. Belə olan halda baş verə biləcək təhlükələrin qarşısını almaq olar.



Çünki yüksək sürətli sukterlər insanlar üçün təhlükədir.

Digər bir tərəfdən skuterləri idarə edən şəxsin qoruyucu vasitələri olmalıdır. Çünki yüksək sürətli sukterləri idarə edən insanların özləri də hər an təhlükə ilə üzləşə bilərlər. Hesab edirəm ki, skuterlərlə bağlı müəyyən ölçülər götürülməldir”.

**40 manatdan 150 manatadək cərimə...**

Skuterlərdən istifadə edənlərin əsasən gənclərdən ibarət olduğunu vurğulayan ekspert bildirib ki, onların bir qismi bu vasitələrə əyləncə obyekti kimi yanaşır, yol hərəkəti qaydalarını ya bilmirlər, ya da gözardı edirlər: “Halbuki bu cihazlar əyləncə vasitəsi deyil və istifadə zamanı qayda pozanlara müəyyən cərimələr tətbiq olunur. Belə ki, skuter sürücüləri qayda pozduqda 40 manat, bu pozuntu nəticəsində digər şəxsə və ya avtomobilə zərər dəyərsə, 150 manat cərimə nəzərdə tutulur. Bu da göstərir ki, məsuliyyət yalnız avtomobil sürücülərinin deyil, bütün yol istifadəçilərinin üzərindədir”.

**Problem daha da dərinləşə bilər**

İ.Hüseynli qeyd edib ki, problemin kompleks şəkildə həm şəhərsalma, həm də nəqliyyat planlaşdırması səviyyəsində həllinə ehtiyac var: “Ümumilikdə, Bakı şəhərində nəqliyyat problemləri müəyyən qədər nəzərə alınaraq həll olunmağa çalışılır. Şəhərin tarixi və qədim struktura malik olması səbəbindən, nəqliyyatın planlaşdırılması əvvəldən düzgün şəkildə qurulmayıb. Son dövrlərdə mikromobillik məsələləri velosipedlər, skuterlər və s. aktuallaşıb. Amma bu yanaşma daha çox şəhərin mərkəzi hissəsində özünü göstərir və ümumi nəqliyyat sistemində əsaslı dəyişiklik yaratmır.

Velosiped və skuter zolaqları təhlükəsizlik təmin ediləcək şəkildə planlaşdırılmalıdır. Şəhərin mərkəzində velosipedlər üçün yaradılan zolaqlar müəyyən dərəcədə rahatlığı təmin etsə da, əslində böyük təhlükə potensialı daşıyır və bu problem gələcəkdə daha da dərinləşə bilər”.

*Yeganə BAYRAMOVA*

# “Azercell” IV Milli Kibertəhlükəsizlik Forumunda süni intellektəsaslı həllərini təqdim edib

*Şirkət forumun “Platin” sponsoru qismində çıxış edib*



Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşəbbüsü ilə IV Milli Kibertəhlükəsizlik Forumu keçirilib. Azərbaycanın rəqəmsal transformasiyasının aparıcı qüvvələrindən biri olan “Azercell Telekom” MMC forumun “Platin” sponsoru qismində tədbirə dəstək göstərib.

Milli kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə verən forum beynəlxalq təcrübənin paylaşılması, innovativ yanaşmaların müzakirəsi və yeni əməkdaşlıq imkanlarının formalaşdırılması üçün mühüm platforma rolunu oynayıb. Tədbir çərçivəsində rəqəmsal transformasiya dövründə yaranan yeni kibertəhdidlər, süni intellekt texnologiyalarının bu sahəyə təsiri, eləcə də müasir müdafiə mexanizmləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Forum dövlət qurumlarının, özəl sektor nümayəndələrinin, beynəlxalq ekspertlərin və aparıcı texnologiya şirkətlərinin iştirakı ilə baş tutub.

Forum çərçivəsində keçirilən “Rəqəmsal transformasiyada kiberçağırışlar” panel müzakirəsində “Azercell Telekom”un Kibertəhlükəsizlik şöbəsinin rəhbəri Mais Şərifli şirkətin kibertəhlükəsizlik infrastrukturunda süni intellektin rolu ilə bağlı əldə olunmuş real və praktiki nəticələri bölüşüb. O qeyd edib ki, “Azercell” hazırda korporativ müştərilərə 10-dan çox fərqli kibertəhlükəsizlik xidməti təqdim edir.

Bildirilib ki, “Azercell” kibertəhdidlərin aşkarlanması və rəqəmsal təhlükəsizlik ekosisteminin mərkəzləşdirilmiş şəkildə idarə olunması məqsədilə süni intellekt arxitekturasını tətbiq edən ilk telekommunikasiya şirkətidir. M.Şərifli kibertəhlükəsizlik analitiklərinin qərarları ilə süni intellekt sistemlərinin verdiyi qərarlar arasında uyğunluq səviyyəsinin hazırda 95 faizi ötdüyünü vurğulayıb.

Süni intellektəsaslı texnologiyalar fasiləsiz fəaliyyət göstərərək əməliyyat proseslərinin sürətini və effektivliyini əhəmiyyətli dərəcədə artırır, bəzi hallarda isə proseslərin icra müddətini ənənəvi yanaşmalarla müqayisədə 40 dəfəyədək azaldır. Eyni zamanda, bu texnologiyalar böyükhəcmli məlumatların emalı və təhlili, eləcə də potensial təhlükələrin vaxtında müəyyənləşdirilməsi istiqamətində mühüm imkanlar yaradır.

Qeyd edək ki, “Azercell” kibertəhlükəsizlik sahəsində fəaliyyətini “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”na uyğun olaraq inkişaf etdirir və ölkənin rəqəmsal dayanıqlılığının gücləndirilməsinə yönəlmiş təşəbbüslərin həyata keçirilməsinə davam edir.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Biznes Şurasının üzvü, “Millennium Turizm & Congress DMC”nin həmtəsisçisi və baş icraçı direktoru

**RUSLAN QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5361**
**Sifariş: 731**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova